**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

31 yanvar 2026-cı il №04 (9159) www.muallim.edu.az muallim@media.edu.az

**2 FEVRAL AZƏRBAYCAN GƏNCLƏRİ GÜNÜDÜR**



# Dövlət başçısı sərəncam imzaladı

## 10 gəncə Prezident mükafatı verildi

2026-cı il Gənclər üçün Prezident mükafatı verilib. Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncamda deyilir:

“Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2026-cı il Gənclər üçün Prezident mükafatları verilsin:

Ağadadaşov Sərxan Əbülfət oğlu
Ağayev Şahmar Zöhrab oğlu
Həsənova Elmina Qəhrəman qızı
Həsənova Leyla Elçin qızı
İsmayıllı Aynur Telman qızı
İsmayılov Mahmud Azər oğlu
Leysanova Hacıyeva Gülbağda Seyfəl qızı
Məmmədova Lamiyə Famil qızı
Novruzov Səməd Əbülqasım oğlu
Tağızadə Mahir Tahir oğlu”.

# BİZ HAQLI OLARAQ GƏNCLƏRİMİZLƏ FƏXR EDƏ BİLƏRİK



**Bu gün Azərbaycan təbii ki, inamla irəliyə baxır, ölkə qarşısındakı əsas vəzifələr öz həllini tapmışdır. Mən, əlbəttə, Qarabağ məsələsini nəzərdə tuturam. Digər sahələrdə inamla addımlayırıq. Mən son illərin əsas hadisələrini sadalamağa başlasam, bir neçə saat vaxt lazım olacaq. Sadəcə olaraq, demək istəyirəm, indiki gənclər üçün imkanlar təbii ki, daha genişdir və gənclər bu imkanlardan istifadə etməlidirlər. Biz azad ölkədə yaşayırıq, sabitlik olan ölkədə yaşayırıq, özünə güvənən ölkədə yaşayırıq. Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq və gənclər həm öz gələcək həyatını düzgün müəyyən etmək üçün və eyni zamanda, dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar. Mən bu sözləri deməklə, eyni zamanda, Azərbaycan gənclərinə həm ürək sözlərimi deyirəm, həm də təşəkkür sözümü deyirəm. Çünki bir çox hallarda, xüsusilə Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik.**

*Prezident İlham Əliyevin 2022-ci il fevralın 2-də Bakıda keçirilmiş Gənclər Forumundakı çıxışından*

# Mübariz, vətənpərvər gənclik

2 Fevral Azərbaycanda Gənclər Günüdür. Ölkəmizdə 1997-ci ildən başlayaraq qeyd olunan bu günün təsis edilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan gəncliyinin istedadını, tükənməz enerjisini hər zaman yüksək dəyərləndirən, onlara millətin, ölkənin sabahı, ümidi kimi yanaşan Ümummilli Lider hakimiyyətdə olduğu dövrlərdə gələcəyə hesablanmış davamlı gənclər siyasətinin əsasını qoyub.

Dahi lider Heydər Əliyev gənclərlə bağlı siyasəti müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirib. Hələ ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin diqqət və qayğısı sayəsində minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilib. Gənc nəslə diqqət və qayğı dövlətin ən mühüm fəaliyyət istiqamətlərindən birinə çevrilib, Azərbaycan gənclərinin təşkilatlanması əsas məqsədlərdən biri kimi qarşıya qoyulub.

1996-cı il fevralın 2-də keçirilən Azərbaycan gənclərinin I Forumunda çıxış edən Ulu Öndər Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoyub: “Hər bir Azərbaycan gənci hər şeydən çox müstəqil Azərbaycanın bugünü, gələcəyi haqqında düşünməlidir”. Bu forum Azərbaycanda gənclər hərəkatının vüsət almasına təkan verib. Ümummilli Lider gənclərlə aparılan işin canlandığını nəzərə alaraq, 1997-ci ildə imzaladığı sərəncamla tədbirin keçirildiyi günü - fevralın 2-ni Azərbaycan Gənclər Günü elan edib. İkinci forumda gənclərə müraciət edən Ulu Öndər deyirdi: “Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun”.

Ardı səh. 2

# Şuşada şəhid olan müəllim



Sentyabrın 27-dən Füzuli cəbhəsindən müharibəyə qatılıb, döyüşlərdə xüsusi fəallığı və igidliyi ilə seçilərək kəşfiyyat bölüyünə daxil edilib. Bir sıra yüksəkliklər uğrunda döyüşlərdə iştirak edib, noyabrın 4-də Şuşanın Daşaltı kəndinin ətrafında gedən döyüşlərdə həlak olana qədər.

Ölümündən sonra “Vətən uğrunda”, “Xocavəndin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

# “Qarabağın terrordan təmizlənməsində və yenidən bərpasında iştirak şansım oldu”




Ardı səh. 6

# 2026-cı il Gənclər üçün Prezident mükafatçıları



**“Bu mükafat bir daha onu göstərir ki, Azərbaycan gəncliyi dövlət səviyyəsində daim diqqət və qayğı ilə əhatə olunur”**



**“Gələcək əsas hədəfim elmə töhfə verməkdir”**



**“Əməyin dəyərləndirilməsini görmək böyük qürurdur”**

# QALİB ölkənin gəncləri

Əvvəli səh. 1-də

# Mübariz, vətənpərvər gənclik

Dahi şəxsiyyətin gənclərlə bağlı imzaladığı bir çox sənədlər isə respublikanın ictimai-siyasi həyatında gənclərin daha da fəal iştirakı üçün şərait yaradıb, gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edib. Bütün bunlar Heydər Əliyevin gənclərə böyük qayğısının sübutu idi. Aparılan işlər nəticəsində ölkəmizdə gənclər siyasəti institutlaşdırılıb, Gənclər və İdman Nazirliyi yaradılıb və bu dövlət qurumu gənclərlə iş sahəsində vahid dövlət siyasətinin reallaşdırılmasını təmin edib. Beləliklə, ölkədə fəal gənclik formalaşıb, gənclər hərəkatı geniş miqyas alıb, dövlətin dəstəyi ilə bu hərəkat təşkilati strukturlara çevrilib. Azərbaycan gənclərinin forumları ənənəvi xarakter alıb. Ulu Öndərin forumlardakı proqram xarakterli nitqlərində gənclər qarşısına konkret vəzifələr qoyulub. "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Fərman imzalanıb. Elmi, mədəni tərəqqinin müstəqil Azərbaycanın gələcəyi üçün xüsusi əhəmiyyəti nəzərə alınaraq istedadlı gənclərə yaradıcılıq potensiallarını inkişaf etdirmək üçün xüsusi təqaüd təsis edilib. Azərbaycan gəncləri vahid azərbaycançılıq ideologiyası ətrafında daha da sıx birləşib. Onların vətənə sədaqət ruhunda tərbiyə edilməsi gənclər siyasətinin fəlsəfi və ideoloji əsasına çevrilib. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasətinə sadiq qalan Prezident İlham Əliyev də Azərbaycan gənclərinin inkişafını hədəfləyən mühüm sənədlərə imza atıb. Gənclərin rifahına xidmət edən mühüm Dövlət Proqramları bu istiqamətdə görülən işlərin miqyasını aydın ortaya qoyur. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin davamı olaraq Prezident İlham Əliyev tərəfindən "Azərbaycan gəncliyi Dövlət Proqramı" (2005-2009-cu illər); "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)"; "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı; "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"; "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı imzalanıb.



Bütün bu sənədlərin hazırlanmasında məqsəd ölkəmizdə gənclərin potensialının inkişaf etdirilməsi, onların məşğulluğunun təmin olunmasına yönəlib. Bundan başqa, gənclərin ölkənin ictimai-siyasi, mədəni həyatında fəallığını təmin etmək üçün 2007-ci il "Gənclər İli" elan olunub və tədbirlər planından irəli gələrək respublikanın şəhər və rayonlarında "Gənclər evi" yaradılıb.

Yeni nəslin sağlam və fəal formalaşdırılması üçün Gənclər Fondu yaradılıb. Gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını bir qədər də stimullaşdırmaq məqsədi daşıyan Fond gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş bir sıra mühüm təşəbbüs və layihələrə imza atıb.

Gənclərə qayğıdan bəhs edərkən ölkə başçısının 2 iyul 2013-cü il tarixli Fərmanı ilə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsini də xüsusi qeyd etməliyik. Bu mükafat elm, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət, təhsil, gənclər siyasəti, gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq fəaliyyəti sahələrində xüsusi fərqlənən gənclərə verilir.

Son illərdə təhsil sahəsində gənclərin inkişafına yönəlik mühüm addımlar atılıb. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın, habelə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın nəticəsində 5000-dən artıq Azərbaycan gənci dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa müvəffəq olub.

Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanları daha da genişləndirilib. Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 sentyabr tarixli Sərəncamı da buna bariz nümunədir. Sərəncama əsasən, gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramının layihəsi hazırlanıb.

Ali məktəblərə yüksək balla qəbul olunan tələbələr hər il yüksək məbləğdə Prezident təqaüdü alır ki, bu da onların elmə həvəsini, təhsilə marağını daha da artırır.

Bu gün Azərbaycanda könüllülər hərəkatı geniş vüsət alıb və aparıcı gücə çevrilib. Cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edən könüllülər hərəkatı ilk dəfə "ASAN xidmət"dən başlayıb və bu gün "ASAN xidmət"də işləyənlərin mütləq əksəriyyətini gənclər təşkil edir. Ümumiyyətlə, ölkəmizdə təxminən, 40 mindən artıq gənc könüllü olaraq çalışmış və hazırda onlar ayrı-ayrı təşkilatlarda müxtəlif vəzifələrdə işləyir. Hazırda ölkəmizdə 200-dən artıq gənclər təşkilatı fəaliyyət göstərir, gənclərimiz Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunurlar. Onlar beynəlxalq tribunalardan xalqımızın haqq səsini dünyaya yayır, beynəlxalq ictimaiyyətin əsl həqiqəti bilməsi üçün var gücü ilə çalışırlar.

Ölkəmizdə gənclərin karyera yüksəlişi, idarəetmə sistemində yüksək vəzifələrə təyin olunması üzrə fəaliyyətlər də nümunəvi hal alıb. Bu sahədə mütərəqqi addım olaraq 2019-cu ildə təsis olunmuş "Yüksəliş" müsabiqəsinin də hədəfi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən olunaraq ölkədə kadr ehtiyatı bankının formalaşdırılmasını qeyd etmək olar.

Dövlətin gənclərə daim dəstək və diqqət göstərməsi nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb. Bu siyasətin ən böyük nəticəsi milli düşüncəyə, yüksək vətənpərvərlik ruhuna malik güclü gənc nəslin formalaşmasıdır.

Gənclərin milli kimlik və vətənpərvərlik ruhunda tərbiyəsi Prezident İlham Əliyevin dövlət siyasətinin ayrılmaz tərkib hissəsidir.

Bu siyasətin ən böyük nəticəsi olaraq Prezident İlham Əliyevin hakimiyyəti dövründə milli düşüncəyə, vətənpərvərlik hissinə malik gənclik yetişdi. Yüksək vətənpərvərlik ruhuna malik yeni nəsil öz sözünü 44 günlük Vətən müharibəsində dedi, doğma yurdu düşməndən təmizlədi, öz sevgisi, cəsurluğu, fədakarlığı, döyüş qabiliyyəti, ən yüksək məqam olan şəhidliyi ilə ölkəmizin 200 illik tarixinə Şanlı Zəfər salnaməsi yazdı. Məhz onların rəşadəti ilə əldə olunan Şanlı Zəfər sayəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu.

Bu gün də gənclərimiz elm, təhsil, mədəniyyət, idman və innovasiya sahələrində uğurla irəliləyir, ölkəmizin inkişafına layiqli töhfələr verirlər.

Bütün Azərbaycan gənclərini 2 Fevral - Gənclər Günü münasibətilə ürəkdən təbrik edir, onlara möhkəm cansağlığı, uğurlar və parlaq gələcək arzulayırıq!

2 Fevral Gənclər Günü ilə bağlı ölkəmizin elm və təhsil həyatında öz töhfələrini verən bir qrup gənclə əlaqə saxlayaraq onların bu əlamətdar günlə bağlı fikirlərini öyrənməyə çalışdıq.

## "Ölkə rəhbərliyinə gənclərin təhsilinə göstərdiyi diqqət və qayğıya görə minnətdarlığımı bildirirəm"



*Ümid MEHDİYEV, ADPU rektorunun müşaviri, Dövlət Proqramı məzunu*

- Azərbaycan dövlətinin gənclərə göstərdiyi dəstəyi mən öz həyatımda birbaşa hiss edən insanlardan biriyəm. Gənclərin təhsilinə verilən önəm, onlara inanılması və gələcəyə investisiya kimi yanaşılması sözlə deyil, real imkanlarla özünü göstərir. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində mənə 2014-2015-ci illərdə Böyük Britaniyanın Liverpul Universitetində "Təchizat zəncirinin idarəedilməsi" ixtisası üzrə magistratura təhsili almaq imkanı yaradıldı. Açığı, bu yol asan deyildi. Yeni ölkə, fərqli təhsil sistemi, fərqli düşüncə tərzi və tamamilə yeni bir mədəniyyət... Amma bütün bu çətinliklərin arxasında dövlətin verdiyi dəstəyin dayandığını bilmək mənə həmişə güc verdi. Bilirdim ki, bu, təkcə mənim şəxsi uğurum deyil, həm də mənə göstərilən etimadın nəticəsidir. Xaricdə təhsil aldığım illər ərzində yalnız peşəkar biliklər qazanmadım. Məsuliyyət hissim artdı, dünyaya baxışım dəyişdi, düşüncə tərzim daha dərindən formalaşdı. Orada öyrəndiklərim mənə öyrətdi ki, inkişaf təsadüf deyil, düzgün planlaşdırılmış siyasətin nəticəsidir.

Bu siyasətin mərkəzində isə gənclər dayanır. Bu gün geriyə baxanda anlayıram ki, əgər Azərbaycan dövlətinin bu proqramı olmasaydı, bəlkə də bir çox imkanlar mənim üçün əlçatmaz qalardı. Buna görə də ölkə rəhbərliyinə gənclərin təhsilinə göstərdiyi diqqət və qayğıya görə səmimi minnətdarlığımı bildirirəm. Mənim üçün bu dəstək sadəcə təhsil imkanı deyil, gələcəyə olan inamın, məsuliyyətin və xidmət borcunun başlanğıcıdır. Eyni zamanda bu gün də ardıcıl olaraq davam etdirilən bu proqramların yalnız fərd kimi ayrılıqda gənclərimizin inkişafına dəstək deyil, ölkə başçısı, cənab Prezident İlham Əliyevin daha böyük miqyasda vətənimizin inkişafına hesablanan uzaqgörən siyasətinin ən vacib elementlərindən biri olduğunu vurğulamaq lazımdır. Bu gənclərə olan etimadın, inamın və uzunmüddətli inkişaf vizyonunun açıq ifadəsidir.

Ölkə rəhbərliyinin gənclərin təhsilinə göstərdiyi diqqət və qayğı, onların beynəlxalq təcrübə qazanmasına, nüfuzlu ali təhsil müəssisələrində oxumasına yaradılan imkanlar Azərbaycan gəncliyinin intellektual potensialının gücləndirilməsinə - nəticədə uğurlu gələcəyimizin inşasına xidmət edir. Əldə olunan bilik və təcrübənin ölkəmizin sosial-iqtisadi inkişafına yönəldilməsi bu siyasətin əsas hədəflərindən biridir.

## "Mənim təhsil həyatımda dövlət dəstəyi həlledici rol oynayıb"




*Gülnarə QULUZADƏ, Dövlət Proqramı təqaüdçüsü*

-Azərbaycan Respublikasında gənclərə göstərilən dövlət dəstəyi ardıcıl və məqsədyönlü siyasətə əsaslanır. Son illər həyata keçirilən islahatlar və qəbul olunan dövlət proqramları gənclərin təhsil almasına, elmi-tədqiqat fəaliyyətinə cəlb olunmasına və beynəlxalq akademik mühitə inteqrasiyasına geniş imkanlar yaradır. Bu proqramlar vasitəsilə gənclər aparıcı xarici universitetlərdə təhsil alaraq müasir elmi yanaşmaları mənimsəyir, ölkəyə qayıtdıqdan sonra əldə etdikləri bilikləri milli inkişaf naminə tətbiq edirlər.

Dövlətin və ölkə rəhbərliyinin gənclərin təhsilinə göstərdiyi diqqət və qayğı xüsusilə xaricdə təhsil təşəbbüslərində öz əksini tapır. Cənab Prezident İlham Əliyevin imzaladığı sərəncamlar əsasında icra olunan dövlət proqramları gənclərin dünyanın aparıcı universitetlərində təhsil almasına şərait yaradır. ADA Universitetinin təşəbbüsü ilə yaradılan "İtaliya-Azərbaycan Universiteti" layihəsi də bu siyasətin bariz nümunəsidir. Layihə iki ölkə arasında elmi və akademik əməkdaşlığın gücləndirilməsinə, kənd təsərrüfatı və qida təhlükəsizliyi kimi strateji sahələrdə rəqabətqabiliyyətli kadrların hazırlanmasına yönəlib.

Mənim təhsil həyatımda da dövlət dəstəyi həlledici rol oynayıb. 2019-2023-cü illər üzrə Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılmasına dair Dövlət Proqramının təqaüdçüsü kimi hazırda Bolonya Universitetində "Qida təhlükəsizliyi" üzrə doktorantura təhsilimin sonuncu kursundayam. Bu imkan mənə qida təhlükəsizliyi sahəsində ən müasir elmi metodlarla tədqiqat aparmaq, beynəlxalq elmi layihələrdə iştirak etmək və əldə etdiyim bilikləri gələcəkdə Azərbaycanın elm və təhsil sisteminin inkişafına yönəltmək üçün şərait yaratmışdır. Dövlətin gənclərə göstərdiyi bu etimad mənim məsuliyyətimi və ölkəmə xidmət əzmimi daha da gücləndirir. İnanıram ki, dövlətin gənclərə yönəlmiş bu məqsədyönlü və davamlı təhsil siyasəti nəticəsində xaricdə əldə etdiyimiz bilik və təcrübələri ölkəmizə transfer edərək, elmi potensialın güclənməsinə və Azərbaycanın beynəlxalq elm və təhsil məkanında mövqeyinin daha da möhkəmlənməsinə mühüm töhfə verəcəyik.

## "Azərbaycan dünyada gənclərə ən çox etimad göstərilən ölkələrdən biridir"



*Murad TEYMUROV, Dövlət Proqramı məzunu*

- Öncə bütün gəncləri Gənclər Günü münasibətilə təbrik edirəm. Mən dövlət idarəetməsi üzrə magistratura təhsilimi Dövlət Proqramı çərçivəsində ABŞ-nin nüfuzlu Çikaqo Universitetində başa vurdum. Hər bir proqram iştirakçısı kimi, əlbəttə ki, biz təhsil almaqla yanaşı Azərbaycanı dünyanın nüfuzlu universitetlərində təmsil edirik. Göstərilən etimadı doğrultmaq üçün əlimizdən gələnin ən yaxşısını etməyə çalışırıq. Universitetdə tədqiqatçı, müəllim kimi çalışmaqla bərabər akademik göstəriciləri daim yüksək tutaraq universiteti fərqlənmə ilə başa vurmağa nail oldum. Həmçinin beynəlxalq tədbirlərə panelçi, mühazirəçi və iştirakçı kimi qatılaraq Azərbaycanı dünyada ən yaxşı şəkildə təmsil etməyə çalışıram.

Dövlət Proqramı düşünürəm ki, Azərbaycan gəncləri üçün yaradılmış ən gözəl imkanlardan biridir. Özünü inkişaf etdirmək istəyən və daim üzərində çalışan gənclərin təhsil arzularını reallaşdırmaq üçün inanılmaz bir imkandır. Təkcə xaricdə təhsil sayəsində deyil, həmçinin yerli təhsil müəssisələrində də dövlətin qayğısını daim hiss edirik.

2014-2018-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin SABAH qruplarında təhsil aldığım müddətdə yüksək akademik göstəricilərimlə əlaqədar həmin dövr üçün yüksək sayılan hər ay təxminən 400 manat məbləğində ödənilən təqaüdə layiq görülmüşdüm. Könüllülük proqramları, təhsil kreditləri, startup inkubasiya mərkəzləri və s. gənclərə öz bilik və bacarıqlarını daha yüksək səviyyədə tətbiq etməyə geniş imkanlar yaradır.

UNESCO-nun məlumatlarına əsasən Azərbaycan əhalinin savadlılıq dərəcəsi üzrə dünyada 5-ci yerdədir (99.9%). Bu da ölkədə təhsilə verilən dəyərin mühüm göstəricilərindəndir. Azərbaycan dünyada gənclərə ən çox etimad göstərilən ölkələrdən biridir. Cənab Prezident hər zaman çıxışlarında gənclərə böyük ümidlərinin və etimadının olduğunu bildirir. Həmçinin, ölkə başçısı çıxışlarında Dövlət Proqramı çərçivəsində təhsilini başa vurmuş gənclərin rəhbər vəzifələrdəki nailiyyətlərinə, onlar tərəfindən müasir idarəçilik metodlarının uğurla tətbiqinə də toxunur.

Bir gənc olaraq, dövlət dəstəyini mən təhsilin bütün pillələrində (bakalavriat, magistratura, doktorantura) hiss etmişəm. Həm Azərbaycan, həm xaricdə dövlət sifarişi əsasında təhsil almışam. Şəffaf şəkildə təşkil edilən qəbul imtahanları gənclərə öz bilik bacarıqlarını nümayiş etdirməyə imkan yaradır.

Səhifəni hazırladı: Oruc MUSTAFAYEV

# Qarabağ Universitetində

## 2025/2026-cı tədris ilinin payız semestri: strateji fəaliyyətlər və nəticələr

Azərbaycanda "Konstitusiya və Suverenlik İli" olaraq elan edilmiş və tarixi Zəfərin beşilliyinin qeyd olunduğu 2025-ci il milli ali təhsil sisteminin də dinamik inkişafı ilə yadda qalmışdır. Ali təhsil sahəsində dövlət dəstəyinin gücləndirilməsi, əlçatanlığın və keyfiyyətin yüksəldilməsi, nüfuzlu qlobal akademik reytinqlərdə təmsilçiliyin artması, xaricdə təhsil və beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi meyilləri ölkədə beynəlxalq standartlara uyğun və daha əlverişli ali təhsil mühitinin formalaşdırılmasında davamlı inkişafa nail olunmasına hədəflənmişdir.




### Milli ali təhsildə müsbət trendlər və güclü dövlət dəstəyi

Milli ali təhsil sistemində baş verən müsbət trendlər, xüsusilə də dövlətimizin ali təhsilin inkişafına yönəlmiş məqsədyönlü siyasəti və birbaşa dəstəyi artıq ikinci tədris ilində fəaliyyətini davam etdirən Qarabağ Universitetində payız semestrinin də uğurla yekunlaşmasında həlledici rol oynamışdır. Məhz güclü dövlət dəstəyi fonunda səmərəli tərəfdaşlıq əlaqələrinin ardıcıl şəkildə inkişaf etdirilməsi, universitetin professor-müəllim və inzibati-texniki heyətinin fədakar əməyi, eləcə də tələbələrimizin bilik və bacarıqlara yiyələnmək istiqamətində nümayiş etdirdikləri əzmkarlıq və məsuliyyət əldə olunan uğurun əsas təminatçıları olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə Xankəndi şəhərində yaradılmış Qarabağ Universiteti cari tədris ilinin payız semestri dövründə institusional inkişaf, tədrisin keyfiyyətinin yüksəldilməsi, tədqiqatyönümlü və tələbə mərkəzli müasir ali təhsil modelinin formalaşdırılması istiqamətində mühüm nəticələr əldə etmişdir.

Ən mühüm və əlamətdar hadisələr dövlət başçımızın iştirakı ilə Xankəndi şəhərində Qarabağ Universitetinin Klinika binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun, Biznes və iqtisadiyyat fakültəsinin yeni binasının açılışı və Mühəndislik fakültəsinin binasının təməlinin qoyulması olmuşdur. Müasir universitet konsepsiyasına uyğun dizayn edilərək inşa olunmuş və istifadəyə verilmiş yeni tədris və klinik infrastrukturlar təhsilin praktikyönümlü təşkili, beynəlxalq standartlara uyğun kadr hazırlığı, elmi-tədqiqat imkanlarının genişləndirilməsi və regionun sosial-iqtisadi inkişafına töhfə verilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bunlar Qarabağ Universitetinin qısa müddətdə çoxşaxəli və ardıcıl inkişaf trayektoriyasına daxil olduğunu təsdiqləyir.

### Genişlənməkdə olan Qarabağ Universiteti ailəsi

Sevindirici haldır ki, cari tədris ilində tələbə qəbulu planının kəmiyyətcə və keyfiyyətcə uğurla yerinə yetirilməsi, yeni ixtisasların yaradılması və bunlara müvafiq surətdə yeni akademik, inzibati və texniki heyət üzvlərinin işə qəbulu hesabına Qarabağ Universiteti ailəsi böyüməkdə davam edir. 2025/2026-cı tədris ili üzrə Qarabağ Universitetinə ümumilikdə 1053 tələbə qəbul olunmuş, onlardan 1024 nəfəri qeydiyyatdan keçmişdir. Əvvəlki illərin tələbələri nəzərə alınmaqla universitet üzrə ümumi tələbə sayı 2152 nəfərə çatmışdır.

Tələbə qəbulunun keyfiyyət göstəriciləri universitetə artan marağı, eləcə də təhsil mühitinə olan yüksək etimadı aydın şəkildə nümayiş etdirir. Qəbul olunan abituriyentlər arasında 127 nəfər 600-dən yuxarı, 332 nəfər 500-dən yuxarı, 613 nəfər isə 400-dən yuxarı bal toplamışdır. Qəbul üzrə qeydə alınan ən yüksək nəticə 684 bal olmuşdur ki, bu da universitetə yüksək akademik potensiala malik gənclərin cəlb edildiyini göstərir. Bununla yanaşı, respublika və beynəlxalq fənn olimpiadalarının qalibi olan 5 abituriyentin müsabiqədənkənar universitetə qəbul olunması Qarabağ Universitetinin istedadlı və perspektivli gənclər üçün cəlbedici təhsil məkanı olduğunu təsdiqləyir. Bu göstəricilər yeni dövrün tələblərinə cavab verən müasir universitet modelinin qurulması, güclü intellektual mühitin formalaşdırılması, elmi və innovativ potensialı yüksək olan tələbə kontingentinin yetişdirilməsi, eləcə də əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və keyfiyyətli məzunların hazırlanması baxımından mühüm əhəmiyyət kəsb edir.

Qəbul olunan tələbələrin 58 faizini qızlar, 42 faizini isə oğlanlar təşkil etmişdir ki, bu da ali təhsildə gender balansının təmin olunması və qızların ali təhsilə əlçatanlığının yüksəlməsi baxımından müsbət tendensiyadır. Coğrafi baxımdan tələbə qəbulunun ölkənin 66 şəhər və rayonunu əhatə etməsi Qarabağ Universitetinin artıq regional deyil, respublika miqyasında ali təhsil mərkəzinə çevrilməsi yolunda vacib göstəricilərdən hesab oluna bilər. Bu həmçinin Xankəndinin ölkənin bütün regionlarını təmsil edən bilikli və istedadlı gənclərin hesabına tələbə şəhəri olaraq formalaşması prioritetinə uyğundur.

Milli inkişaf prioritetləri, əmək bazarının tələbləri və Qarabağ regionunun inkişaf ehtiyacları nəzərə alınmaqla cari tədris ilində 9 yeni ixtisas (Tibb, Tibb bacısı (qardaşı) işi, Data analitika, Riyaziyyat, Dekorativ tətbiqi sənət, Musiqişünaslıq, Coğrafiya müəllimliyi, Kimya müəllimliyi və Biologiya müəllimliyi) əlavə edilərək universitetin kadr hazırlığı profili genişləndirilmişdir. Bununla da universitet üzrə ixtisasların sayı 25-dən 34-ə çatdırılmışdır.

Hazırda Qarabağ Universitetində 7 fakültə (Pedaqoji, İncəsənət, Mühəndislik, Biznes və iqtisadiyyat, Turizm, Humanitar və sosial elmlər, Tibb və sağlamlıq elmləri) üzrə müasir kurikulumlar əsasında tədris aparılır. Tədris proqramlarının hazırlanmasında nəticəyönümlü təhsil modeli, kompetensiya əsaslı yanaşma və beynəlxalq təcrübə əsas meyar kimi götürülmüşdür. Praktiki bacarıqların formalaşdırılması, istehsalat və klinik təcrübələrin genişləndirilməsi, real layihələr üzərində tələbələrlə iş mexanizmlərinin qurulması və bu məqsədlə müasir laboratoriyaların, klinik baza və praktiki tədris mühitinin yaradılması və inkişaf etdirilməsi universitetdə tədrisin təşkili prosesində prioritet vəzifələrdən hesab olunur.

Universitetin strateji hədəflərinə və qarşıya qoyulmuş vəzifələrə uyğun olaraq 2025-ci ildə də kadr cəlbi prosesi davam etdirilmişdir. Hazırda Qarabağ Universitetində klinika da daxil olmaqla, ümumilikdə 378 nəfər əməkdaş fəaliyyət göstərir. Onlardan 159 nəfəri professor-müəllim heyətini, 219 nəfəri isə inzibati və texniki heyəti təşkil edir.

Universitetin sosial infrastrukturu əhəmiyyətli dərəcədə genişləndirilərək bütün əməkdaşlar və tələbələr müvafiq yaşayış şəraiti ilə təmin olunmuşlar. Cari tədris ilində müasir kampus konsepsiyasına uyğun əsaslı təmir işləri aparılmış 7 mənzil tipli binadan ibarət yeni yataqxana kompleksi Qarabağ Universitetinin tələbələrinin istifadəsinə verilmişdir. Müvafiq yaşayış şəraiti yaradılmış 312 mənzil zəruri avadanlıqlarla təchiz edilmişdir. Ümumilikdə 30 min kvadratmetr mənzil sahəsi olan yataqxana kompleksində 1700 tələbənin yaşaması nəzərdə tutulmuşdur.

### İdarəetmədə müasir yanaşmalar

2025/2026-cı tədris ilinin payız semestrində Qarabağ Universitetində idarəetmədə sistemli, şəffaf və strateji yanaşmanın tətbiqi əsas prioritetlərdən biri olmuşdur. Akademik və inzibati struktur bölmələri arasında koordinasiyanın davamlı şəkildə gücləndirilməsi, tələbəyönümlü və nəticə əsaslı idarəetmə mexanizmlərinə üstünlük verilməsi universitetin dayanıqlı və rəqabətqabiliyyətli ali təhsil müəssisəsi kimi mövqeyinin möhkəmləndirilməsinə yönəlmişdir.

Bu yanaşmanın institusional əsaslarının formalaşdırılmasında universitetin ali idarəetmə orqanı olan Elmi Şuranın fəaliyyəti mühüm rol oynamışdır. Semestr ərzində keçirilən Elmi Şura iclaslarında idarəetmədə kollegiallıq, şəffaflıq və hesabatlılıq prinsipləri təmin edilmiş, tədrisin təşkili, tələbə qəbulu nəticələri, imtahan sessiyasına hazırlıq, fakültələrin fəaliyyəti, elmi-tədqiqat mühitinin inkişafı və tədris resurslarının zənginləşdirilməsi ilə bağlı məsələlər ətraflı müzakirə olunaraq müvafiq qərarlar qəbul edilmişdir.

Qarabağ Universitetində tələbə mərkəzli yanaşma əsasında müasir idarəetmə modelinin tətbiqinə xüsusi önəm verilmişdir. Universitetdə davamlı surətdə təşkil olunan sorğular və görüşlər əsasında tələbələrin maraq və ehtiyacları təhlil edilmiş və müvafiq olaraq tədbirlər həyata keçirilmişdir. Buna misal olaraq, cari tədris ilinin əvvəlində tələbələrin akademik və sosial mühitə çevik uyğunlaşmasını təmin etmək, həmçinin onlara zəruri resursları təqdim etmək məqsədilə orientasiya günləri təşkil edilmişdir. Bu çərçivədə tələbələr Xankəndi şəhərinin əsas məkanları və iaşə obyektləri ilə tanış olmuş, universitetin tədris binaları, fakültələrin strukturu və heyəti barədə məlumatlandırılmış, tədrisin təşkili, intizam qaydaları, qiymətləndirmə meyarları, dərs cədvəli və sillabuslarla ətraflı tanış olmuşlar. Həmçinin universitet həyatına yeni qədəm qoymuş gənclərin motivasiyasının gücləndirilməsi məqsədilə universitet rəhbərliyinin bütün fakültələr üzrə tələbələrlə silsilə görüşləri təşkil edilmişdir.

Bundan əlavə, tədrisin, sənəd dövriyyəsinin və kitabxana xidmətlərinin idarə olunmasında elektron sistemlərin tətbiqi istiqamətində hazırlıq işləri davam etdirilmişdir. Bu addımlar idarəetmədə rəqəmsallaşmanın genişləndirilməsinə, qərar qəbuletmə proseslərinin çevikliyinin və əməliyyat səmərəliliyinin artırılmasına, həmçinin universitetdə müasir və effektiv tədris mühitinin formalaşdırılmasına xidmət etmişdir.

### Tədrisdə keyfiyyət təminatı

Ümumilikdə, həyata keçirilmiş idarəetmə və təşkilati tədbirlər, atılmış məqsədyönlü addımlar universitetin milli və beynəlxalq səviyyədə rəqabətqabiliyyətli təhsil və tədqiqat mərkəzinə çevrilməsi istiqamətində davamlı inkişaf xəttini dəstəkləmişdir. Bu kontekstdə Qarabağ Universitetində beynəlxalq keyfiyyət təminatı sahəsində əldə edilən ilk mühüm nailiyyət kimi Biznes və iqtisadiyyat fakültəsinin "Mühasibat" və "Maliyyə" ixtisaslarının dünyanın ən nüfuzlu peşəkar maliyyə qurumlarından biri olan ACCA (The Association of Chartered Certified Accountants - İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası) tərəfindən akkreditə olunması xüsusi qeyd olunmalıdır. Bu akkreditasiya Qarabağ Universitetində hər iki ixtisas üzrə tədris olunan proqramların akademik məzmununun, təlim nəticələrinin və qiymətləndirmə mexanizmlərinin ACCA-nın beynəlxalq standartlarına tam uyğun olduğunu təsdiqləyir. Akkreditasiya çərçivəsində "Mühasibat" və "Maliyyə" ixtisasları üzrə gələcək məzunlar 5 il müddətində ACCA-nın 4 imtahanından (Business and Technology, Management Accounting, Financial Accounting, Corporate and Business Law) azad olunacaqlar. Bu mühüm üstünlük tələbələrimizə beynəlxalq peşəkar sertifikatlaşma yolunda vaxt və resurslara qənaət etməklə yanaşı, onların qlobal əmək bazarında rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artırır.

Universitetdə müəllimlərin pedaqoji və metodiki bacarıqlarının artırılması məqsədilə müxtəlif seminarlar, təlimlər və işgüzar müzakirələr təşkil olunmuşdur ki, bu da tədrisin keyfiyyətinin yüksəldilməsində mühüm addım hesab edilir.

Eləcə də, 2025/2026-cı tədris ilinin payız semestrinin imtahan sessiyasının mövcud qanunvericiliyin tələblərinə uyğun və qabaqcıl beynəlxalq təcrübə əsasında, şəffaflıq və obyektivlik prinsipləri gözlənilməklə təşkil edilməsi tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədi daşıyır. İmtahan tapşırıqları tələbələrin yalnız nəzəri biliklərinin deyil, eyni zamanda analitik düşünmə, tənqidi yanaşma, problemi həll etmə və tətbiqi bacarıqlarının ölçülməsinə imkan vermişdir. İmtahan prosesində yazılı, şifahi, təqdimat (layihə) əsaslı və test üsulu ilə qiymətləndirmə, eyni zamanda kombinə edilmiş üsullardan istifadə edilmişdir.

### Elmi fəaliyyətdə dinamik inkişaf

Cari tədris ilinin payız semestri Qarabağ Universiteti üçün elmi fəaliyyət sahəsində əhəmiyyətli nailiyyətlərin əldə olunması ilə də səciyyələnmişdir. Qısa zaman kəsiyində universitetin alim və tədqiqatçıları dünyanın müxtəlif ölkələrində keçirilmiş nüfuzlu beynəlxalq elmi konfrans və tədbirlərdə fəal iştirak etmiş, aktual elmi mövzular üzrə məruzələrlə çıxış edərək beynəlxalq elmi ictimaiyyətlə səmərəli elmi mübadilə aparmışlar. Semestr ərzində Qarabağ Universiteti Türkiyə, Latviya, Serbiya, Danimarka və Qazaxıstanda təşkil olunan elmi platformalarda layiqincə təmsil olunmuşdur.

Elmi fəaliyyətin kəmiyyət və keyfiyyət göstəricilərində də müsbət dinamika müşahidə edilmişdir. Belə ki, 2024-cü ildə 6, 2025-ci ildə isə 28 olmaqla, ümumilikdə Qarabağ Universiteti əməkdaşlarının "Scopus" indeksli nüfuzlu beynəlxalq elmi jurnallarda dərc olunmuş məqalələrinin sayı 34-ə çatmışdır. Aparılan tədqiqatlar fundamental və tətbiqi elmləri əhatə edən geniş və interdisiplinar sahələri əhatə etmiş, həm yerli, həm də qlobal çağırışlara cavab vermişdir. Bu tədqiqatların nəticələri BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən 12-nin icrasına töhfə vermişdir. Xüsusilə iqlim dəyişikliyi, enerji, innovasiya və iqtisadi inkişaf sahələrində araşdırmalar üstünlük təşkil etmişdir ki, bu da universitetin sosial və ekoloji məsuliyyət prinsiplərinə əsaslanan elmi yanaşmasını əks etdirir.

Elmi potensialın gücləndirilməsi məqsədilə universitet əməkdaşları tədqiqat bacarıqlarının artırılmasına yönəlmiş təlim proqramlarına fəal cəlb olunmuşlar. Universitetin Tədqiqat və İnnovasiya Mərkəzinin dəstəyilə bütün fakültələrdə həftəlik elmi seminarların təşkilinə başlanılmışdır. Qarabağ Universiteti bu təşəbbüslə akademik mühitdə elmi istiqamətlənməni gücləndirməyi, yeni tədqiqat layihələrinin yaranmasına dəstək göstərməyi və universitetin innovasiya ekosistemini daha da inkişaf etdirməyi hədəfləyir.

### Tələbə nailiyyətləri və fəallığı

2025/2026-cı tədris ilinin payız semestri Qarabağ Universitetində tələbələrin akademik biliklərinin real mühitdə tətbiqi, innovativ təşəbbüslərlə çıxış etməsi və universiteti milli və beynəlxalq platformalarda layiqincə təmsil etməsi baxımından əlamətdar olmuşdur. Tələbələr iqlim fəaliyyəti, "yaşıl iqtisadiyyat", mühəndislik, aqrar innovasiyalar, sahibkarlıq və digər sahələrdə müvafiq təşəbbüslərlə çıxış edərək uğur qazanmışdırlar. Qarabağ Universitetində bu istiqamətdə fəaliyyətlərin dəstəklənməsi tələbələrin qlobal miqyasda rəqabətqabiliyyətli, sosial məsuliyyətli və praktikyönümlü mütəxəssislər kimi formalaşdırıldırılmasına hədəflənmişdir.

Semestr ərzində "Bakı İqlim Fəaliyyəti Həftəsi 2025", "Rebuild Karabakh" və "Baku-Build" beynəlxalq sərgiləri və Beynəlxalq STEAM Azərbaycan Festivalında (SAF 2025) Qarabağ Universitetinin tələbələrinin layihələri böyük maraqla qarşılanmış və Qarabağın "yaşıl bərpası"na gənclərin töhfəsi kimi yüksək dəyərləndirilmişdir.

Eləcə də, Qarabağ Universitetinin tələbələrinin hazırladığı "Agritech Hydro Karabakh" layihəsinin "Bizdən Biznesə" startap müsabiqəsində üçüncü yerə layiq görülməsi və 15000 AZN maliyyə mükafatı qazanması tələbə sahibkarlığının təşviqi istiqamətində əldə edilən nailiyyətlərdəndir. Bundan əlavə, Qarabağ Universitetinin 8 tələbəsi "Gənc qızların təhsilinə dəstək" layihəsi çərçivəsində "Hənifə Məlikova-Zərdabi adına təqaüd proqramı - 2025" in qalibi seçilmişdir. Həmçinin Qarabağ Universitetinin "Hüquqşünaslıq" ixtisasında təhsil alan tələbələri Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən müsabiqə və viktorinada uğur qazanmışlar.

Semestr ərzində Qarabağ Universitetinin tələbələri bir sıra nüfuzlu beynəlxalq elmi və texnoloji platformalarda uğurla təmsil olunmuşlar. "Enactus Qarabağ" komandası ilk dəfə iştirak etdiyi "Enactus Azərbaycan" milli yarışının qalibi olmuş və Tailand Krallığında keçirilən "Enactus Dünya Kuboku 2025"-də Azərbaycanı uğurla təmsil edərək innovativ düşüncə sahəsində universitetin beynəlxalq nüfuzunun artmasına töhfə vermişdir. Həmçinin tələbələrimiz Avstraliyanın Sidney şəhərində 76-cı Beynəlxalq Astronavtika Konqresində (76th International Astronautical Congress - IAC 2025) iştirak etmişlər. Bununla yanaşı, tələbə komandamız 50-ci ICPC - Universitetlərarası Beynəlxalq Proqramlaşdırma Müsabiqəsinin yarımfinal mərhələsində və Cənubi Qafqaz Açıq Çempionatında uğurla iştirak edərək əvvəlki illərlə müqayisədə əhəmiyyətli irəliləyişə nail olmuşlar. Bundan əlavə, Azərbaycan Respublikası ilə Mərakeş Krallığı arasında həyata keçirilən gənclər mübadiləsi proqramı çərçivəsində 12 nəfərdən ibarət Azərbaycan nümayəndə heyətinin tərkibində Qarabağ Universitetinin bir tələbəsi Mərakeşdə səfərdə fəal təmsil olunmuşdur.

Semestr ərzində könüllülük fəaliyyətləri də diqqət mərkəzində saxlanılmışdır. Tələbələr 2025-ci ilin 2-5 sentyabr tarixlərində III MDB Oyunları çərçivəsində Xankəndi şəhər stadionunda təşkil olunan yarışlarda, eləcə də 15-16 oktyabr tarixlərində III Azərbaycan Milli Şəhərsalma Forumunda könüllü kimi fəal iştirak etmişlər.

### Beynəlxalq və yerli tərəfdaşlıqların inkişafı

Bu dövr Qarabağ Universiteti üçün beynəlxalq əməkdaşlığın inkişafı, strateji tərəfdaşlıqların genişləndirilməsi və universitetin qlobal akademik məkanda mövqeyinin möhkəmləndirilməsi baxımından da mühüm mərhələ olmuşdur. Həyata keçirilən rəsmi səfərlər və institusional təmaslar Qarabağ Universitetinin beynəlxalq əməkdaşlığının inkişafının planlı, ardıcıl və məqsədyönlü xarakter daşıdığını nümayiş etdirmişdir. Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayevin Türkiyə Respublikasının milli təhsil naziri Yusuf Tekin və Türkiyə Ali Təhsil Şurasının sədri Erol Özvar ilə birlikdə Qarabağ Universitetində olmaları və eləcə də Ankarada keçirilimiş görüşlər Qarabağ Universitetinin Türkiyə universitetləri ilə əməkdaşlığının yeni mərhələyə keçməsinə əhəmiyyətli töhfə vermişdir. Bununla yanaşı, Türkiyənin Şərqi Anadolu bölgəsində yerləşən universitetlərin rektorlarından ibarət nümayəndə heyəti ilə Qarabağ Universitetində keçirilən görüş çərçivəsində potensial əməkdaşlıq imkanları ətrafında səmərəli müzakirələr aparılmışdır.

Qarabağ Universitetinin Türk Universitetlər Birliyinə (TÜRKÜNİB) üzv qəbul edilməsi beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində mühüm nailiyyət hesab olunur. Bundan əlavə, 2026-cı ilin yanvarında Ankaraya səfər çərçivəsində Türkiyənin nüfuzlu ali təhsil müəssisələri - Ankara Universiteti, Hacettepe Universiteti, Ankara Hacı Bayram Veli Universiteti və Qazi Universiteti ziyarət edilmiş, qarşılıqlı əməkdaşlıq perspektivləri üzrə faydalı müzakirələr aparılmışdır. Səfər zamanı, Azərbaycan Respublikasının elm və təhsil naziri və Türkiyə Ali Təhsil Şurasının sədrinin iştirakı ilə Qarabağ Universiteti və İstanbul Texniki Universiteti arasında Anlaşma Memorandumunun imzalanması universitetimizin tədris və tədqiqat potensialının gücləndirilməsinə, beynəlxalq standartlara uyğun kadr hazırlığının təmin edilməsinə hədəflənmişdir.

Bununla yanaşı, Qarabağ Universitetində qabaqcıl yerli ali təhsil müəssisələri, dövlət və sənaye qurumları ilə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Beləliklə, dövlətimizin hərtərəfli dəstəyi və faydalı tərəfdaşlıqlar sayəsində Qarabağ Universitetində cari tədris ilinin payız semestri məhsuldarlığı ilə yadda qalmışdır. Əldə olunan nailiyyətlər, reallaşdırılan yeni layihələr və tərəfdaşlıqlar universitetin strateji hədəflərinə çatması yolunda əhəmiyyətli addımlar olmuşdur. Regional ekosistemin drayveri olmağı hədəfləyən Qarabağ Universitetinin potensialının daha da gücləndirilməsi məqsədilə dövlətimizin güclü dəstəyilə reallaşdırılan bu çoxşaxəli fəaliyyətlər növbəti dövrlərdə də davam etdiriləcəkdir.

**Şahin BAYRAMOV,**
*Qarabağ Universitetinin rektoru*

# Milli Qəhrəmanın adının məktəbdə yaşadılması gənclər üçün örnəkdir

## Nazir Mingəçevirdə Milli Qəhrəman Natiq Qasımovun adını daşıyan məktəbdə büstün açılışında iştirak edib





Yanvarın 29-da elm və təhsil naziri Emin Əmrullayev Mingəçevir şəhərinə səfər edib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Nazir Mingəçevir şəhərində Milli Qəhrəman Natiq Qasımovun adını daşıyan 4 nömrəli tam orta ümumtəhsil məktəbində Milli Qəhrəmanın büstünün açılış mərasimində iştirak edib.

Tədbirdə Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, Milli Qəhrəmanın ailə üzvləri, məktəb kollektivi və digər qonaqlar iştirak ediblər.

Açılış mərasimində çıxış edən elm və təhsil naziri Emin Əmrullayev məktəb mühitində qəhrəmanların xatirəsinin yaşadılmasının gənc nəslin vətənpərvərlik ruhunda formalaşması baxımından mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Nazir vurğulayıb ki, təhsil təkcə bilik və bacarıqların verilməsi ilə məhdudlaşmır, eyni zamanda vətəndaş məsuliyyətinin, milli kimliyin, tarixi yaddaşın və mənəvi dəyərlərin möhkəmləndiyi əsas platformadır.

Çıxış edən Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov Milli Qəhrəman Natiq Qasımovun adının məktəbdə yaşadılmasının şəhərin gəncləri üçün örnək və mühüm mənəvi dəyər kəsb etdiyini bildirib.

Şəhidin qardaşı Nofəl Qasımov çıxışında ailəsi adından göstərilən diqqət və ehtirama görə təşəkkürünü bildirib, Milli Qəhrəman Natiq Qasımovun Vətən uğrunda göstərdiyi şücaətin, qəhrəmanlıq nümunəsinin və fədakarlığının gələcək nəsillər üçün əsl örnək olduğunu vurğulayıb.

# Elm və təhsil naziri Kürdəmirdə vətəndaşları qəbul edib



Yanvarın 30-da elm və təhsil naziri Emin Əmrullayev Kürdəmir şəhərində vətəndaş qəbulu keçirib.

Qəbulda Kürdəmir, Mingəçevir, Yevlax, Ağdaş, Göyçay, Ucar, Zərdab sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbul zamanı vətəndaşlar təhsil müəssisələrinin təmir-tikintisi, müəllimlərin iş yerinin dəyişdirilməsi, tələbə köçürülməsi və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# Mərkəzi Aran regionunda tədrisin keyfiyyəti müzakirə edilib





Elm və təhsil naziri Emin Əmrullayev yanvarın 29-da Mərkəzi Aran Regional Təhsil İdarəsində Yevlax, Ucar, Mingəçevir, Göyçay, Ağdaş, Kürdəmir və Zərdab rayonları üzrə bir qrup qabaqcıl təhsil işçisi ilə görüşüb.

Görüş zamanı ümumtəhsil məktəblərində təhsil mühitinin yaxşılaşdırılması, təhsilin keyfiyyətinin artırılması, idarəetmənin səmərəliliyinin yüksəldilməsi və pedaqoji prosesin təkmilləşdirilməsi ilə bağlı məsələlər müzakirə olunub.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında məktəblərdə sağlam və təhlükəsiz təhsil mühitinin formalaşdırılmasının əsas prioritetlərdən biri olduğunu qeyd edib. Nazir vurğulayıb ki, təhsil müəssisələrində mövcud problemlərin mərhələli şəkildə aradan qaldırılması regionların ümumi inkişafına, təhsilin keyfiyyət göstəricilərinin yüksəlməsinə və şagird nailiyyətlərinin artmasına birbaşa təsir göstərir.

Görüşdə ibtidai siniflərdə tədrisin təşkili və bu mərhələdə müşahidə olunan problemlərə xüsusi diqqət ayrılıb. Emin Əmrullayev ibtidai təhsilin bütün təhsil pillələri üçün baza rolunu oynadığını qeyd edərək bu sahədə yaranan çətinliklərin vaxtında aradan qaldırılmasının gələcək təlim nəticələri baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.

Nazir müasir pedaqoji yanaşmaların tətbiqinin vacibliyini vurğulayaraq tədris prosesində şagirdyönümlü metodların, tənqidi düşünmə və əməkdaşlıq bacarıqlarının formalaşdırılmasına xidmət edən yanaşmaların genişləndirilməsinin önəmini qeyd edib. Eyni zamanda layihə əsaslı öyrənmənin şagirdlərin bilik və bacarıqlarının real həyat situasiyalarında tətbiqinə imkan yaratdığını, bu yanaşmanın təlim motivasiyasını artırdığını diqqətə çatdırıb.

Görüş zamanı şagirdlər üçün hazırlanmış dərsliklərin məzmunu və tədris prosesində istifadəsi məsələlərinə də toxunulub. Nazir dərsliklərin şagirdlərdə oxuyub-anlama, məntiqi düşünmə və tətbiqetmə bacarıqlarının inkişafına xidmət etməsinin vacibliyini qeyd edib, bu istiqamətdə müəllimlərin rəy və təkliflərinin əhəmiyyətini vurğulayıb.

Direktor və müəllimlər tərəfindən tədris prosesinin təşkili, metodiki dəstək, ibtidai siniflərdə təlimin keyfiyyəti, layihə əsaslı öyrənmənin tətbiqi və dərsliklərlə bağlı sual və təkliflər səsləndirilib.

Görüşün sonunda təhsil ictimaiyyəti ilə birbaşa dialoqun əhəmiyyəti vurğulanıb, regionlarda fəaliyyət göstərən məktəb rəhbərlərinin və müəllimlərin təşəbbüskarlığının dəstəklənəcəyi bildirilib.

# Elm və təhsil naziri Mərkəzi Aran regionu üzrə gənc pedaqoji heyətlə görüşüb






**Elm və təhsil naziri Emin Əmrullayev yanvarın 29-da Mingəçevirə səfər çərçivəsində Noel Ahəngari adına 13 nömrəli tam orta məktəbdə Mərkəzi Aran regionu üzrə gənc pedaqoji heyətlə görüşüb.**

## Qarşılıqlı etimad və hörmət üzərində qurulan münasibət təlim nəticələrinə birbaşa təsir göstərir

Mərkəzi Aran Regional Təhsil İdarəsi və Azərbaycan Gənc Müəllimlər Assosiasiyası tərəfindən təşkil edilən və səmimi dialoq formatında keçən görüşdə bir qrup gənc müəllim, məktəb direktoru və müavinləri, tərbiyəçi müəllimlər iştirak ediblər. Görüş zamanı təhsil müəssisələrində tədris mühitinin təşkili, təhsilin keyfiyyətinin yüksəldilməsi, müəllimlərin peşəkar inkişafı və məktəb idarəçiliyində səmərəliliyin artırılması məsələləri geniş müzakirə olunub.

Elm və təhsil naziri Emin Əmrullayev görüşdə müəllimin yalnız fənn biliklərini ötürən şəxs deyil, eyni zamanda yaxşı metodist, düzgün istiqamət verən və şagirdi düşünməyə təşviq edən pedaqoq olmasının vacibliyini vurğulayıb. Nazir şagird—müəllim münasibətlərinə də toxunaraq bildirib ki, qarşılıqlı etimad və hörmət üzərində qurulan münasibət təlim nəticələrinə birbaşa təsir göstərir.

Görüşdə dərsliklərin məzmunu və tətbiqi ilə bağlı məsələlərə də diqqət yetirilib. Müəllimlər tədris prosesində qarşılaşdıqları çətinliklər, dərs yükü, metodiki dəstək, qiymətləndirmə mexanizmləri, dərsliklərlə bağlı təkliflər, həmçinin şagirdlərin oxu bacarıqlarının inkişafı ilə bağlı suallar səsləndiriblər. Nazir bütün sual və təklifləri diqqətlə dinləyib, mövcud islahatlar, planlaşdırılan yeniliklər və praktik yanaşmalar barədə ətraflı məlumat verib.

Məktəb direktorları da öz növbəsində idarəetmədə qarşılaşdıqları məsələlər, məktəbdaxili monitorinq, müəllimlərlə iş və valideynlərlə əməkdaşlıq mövzusunda fikirlərini bölüşüblər.

Görüş zamanı nazir məktəb rəhbərlərinin təşəbbüskarlığının və məsuliyyətinin təhsilin keyfiyyətinə birbaşa təsir etdiyini qeyd edib.

Sonda Emin Əmrullayev bu cür görüşlərin keçirilməsinin əhəmiyyətini vurğulayaraq müəllim və direktorların səsləndirdiyi təkliflərin nəzərə alınacağını bildirib, gənc pedaqoji heyəti qarşıdan gələn 2 Fevral - Gənclər Günü münasibətilə təbrik edərək onlara uğurlar arzulayıb. Nazir təhsildə keyfiyyətin yüksəldilməsinin yalnız birgə əməkdaşlıq və ardıcıl fəaliyyətlə mümkün olduğunu qeyd edib.

# Uşaqların hüquqları və rifahı beynəlxalq gündəmdə əsas yer tutur



**Firudin QURBANOV**

**"Təəssüf ki, müasir dünyada uşaqların qorunması çox ciddi problemlərlə üzləşir. Baxmayaraq ki, insan hüquqlarının fundamental dəyərə çevrildiyi müasir dünyada cəmiyyətin ən həssas qruplarından biri uşaqlardır. Onların hüquqları və rifahı beynəlxalq gündəmdə əsas yer tutur. Sivilizasiya sürətlə inkişaf etsə də, bu gün dünya birliyi çox ciddi çağırışlarla üz-üzədir. Bu gün dünyada milyonlarla uşaq yoxsulluqdan, silahlı münaqişələrdən, müharibələrdən, ayrı-seçkilikdən, iqlim dəyişikliklərindən və digər qlobal problemlərdən əziyyət çəkir. Bu çağırışlar bütün maraqlı tərəfləri, dövlət strukturlarını, beynəlxalq təşkilatları, vətəndaş cəmiyyətini və hətta özəl sektorları narahat edərək onların birgə səylərini gündəmə gətirir. Yalnız birgə səylərlə bu çağırışların qarşısını almaq olar. "Uşaq hüquqları haqqında" Qanun təxminən 30 il bundan əvvəl qəbul olunub. Bu 30 ildə çox böyük dəyişikliklər baş verib. Təbii ki, bu gün yeni qanunun qəbul edilməsi çox zəruridir".**

## "Uşaq hüquqları haqqında" qanun layihəsi birinci oxunuşda parlamentin plenar iclasına tövsiyə edilib



Yanvarın 28-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitə sədri Hicran Hüseynova gündəliyə iki məsələnin daxil edildiyini deyib.

Əvvəlcə, "Uşaq hüquqları haqqında" qanun layihəsi birinci oxunuşda təqdim olunub. Komitə sədri vurğulayıb ki, uşaq hüquqlarının təmin edilməsi və müdafiəsi ölkədə həyata keçirilən dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Qeyd edilib ki, yeni qanun layihəsinin hazırlanmasında məqsəd mövcud qanunvericiliyin müasir çağırışlar nəzərə alınmaqla təkmilləşdirilməsi, uşaq mənafelərinin daha effektiv qorunması, sosial təminat mexanizmlərinin gücləndirilməsi və beynəlxalq konvensiyaların tələblərinə uyğunlaşdırılmasıdır. Layihəyə əsasən, 11 yeni anlayışın ayrıca maddədə təsbiti nəzərdə tutulub.

İclasda iştirak edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qanun layihəsi barədə məlumat verərək bildirib ki, sənəddə uşaqlara qarşı cismani cəza anlayışı ayrıca təsbit olunur və bu cür halların yolverilməzliyi açıq şəkildə vurğulanır. Eyni zamanda, uşaq hüquqları ilə bağlı qərarlar qəbul edilərkən qanun layihəsinin 61-ci maddəsində əksini tapmış 8 tələb əsas götürüləcək və bununla da müvafiq çərçivə müəyyənləşdiriləcək. Qeyd olunub ki, yeni qanun layihəsi uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarətinin gücləndirilməsinə xidmət edəcək.

İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva isə bildirib ki, qanun layihəsi uşaq hüquqlarının daha səmərəli müdafiəsi ilə bağlı normaları özündə ehtiva edir. Qeyd olunub ki, ombudsman tərəfindən qanun layihəsi ətraflı təhlil edilib və erkən evliliklərin qarşısının alınması, uşağın azadlıq və şəxsi toxunulmazlıq hüququnun, şərəf və ləyaqətinin, fərdiliyinin və sosial müdafiəsinin təmin edilməsi, eləcə də uşaq alveri və istismarının qadağan olunması və digər məsələlər ilə bağlı irəli sürülən təkliflər sənəddə öz əksini tapıb.

İclasda çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov qeyd edib ki, qanun layihəsi hazırlanarkən beynəlxalq təcrübə nəzərə alınıb. Bildirilib ki, qanun layihəsində uşaqlara qarşı zorakılıqla bağlı, müasir texnologiyalarla bağlı maddələr öz əksini tapıb.

Qanun layihəsi ilə bağlı digər çıxışlarda da qeyd və təkliflər səsləndirilib.

Daha sonra komitə sədri Hicran Hüseynova gündəliyin ikinci məsələsini - Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Cinayət-Prosessual Məcəllədə, eləcə də "Gənclər siyasəti", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası", "Bədən tərbiyəsi və idman", "Sosial xidmət", "Reklam", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması", "Uşaqların zərərli informasiyadan qorunması" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib.

O bildirib ki, qanun layihəsinin əsas məqsədi uşaq hüquqlarının təminatı sahəsində mövcud qanunvericiliyi beynəlxalq standartlara uyğunlaşdırmaq, uşaqların fikrinin nəzərə alınmasını, fərdi məlumatlarının qorunmasını və zorakılıqdan müdafiəsini gücləndirən yeni hüquqi mexanizmlər yaratmaqdır. Layihə, həmçinin çətin həyat şəraitində olan uşaqların vaxtında aşkarlanmasını, onların maraqlarının səmərəli müdafiəsini və bu sahədə dövlət nəzarətinin genişləndirilməsini təmin etməyə yönəlib.

Qanun layihəsinin müzakirəsində çıxış edənlər təkliflərini səsləndiriblər.

Sonda hər iki qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Peşə təhsili alan 14 yaşlı tələbə kimdir?

**Bu** il peşə təhsili müəssisələrinə aparılan qəbul prosesinin nəticələrinə görə, "tələbə" adı qazananlardan biri Ümid Mənəfzadə 14 yaşındadır. O, bu il peşə təhsili müəssisələrinə qəbul olunan ən balaca tələbə olub. Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzində "Aşpaz" ixtisası üzrə 3 illik texniki peşə təhsili alacaq. Dövlət sifarişli yerdə oxuyan Ümidin gələcəklə bağlı böyük planları var. Hədəfi restoran sahibi olmaqdır.



### Məktəbəhazırlığa başladı, amma I sinfi bitirdi

Ümid 2011-ci il oktyabrın 18-də anadan olub. İmişli rayonundakı Xocavənd rayon Qaradağlı kənd 1 nömrəli tam orta məktəbində oxuyub: "Məktəb rayonumuzda yerləşir. Mənə ərazicə ən yaxın məktəb olduğundan burada təhsil aldım".

14 yaşlı tələbə "Azərbaycan müəllimi"nə IX sinfi bu qədər tez bitirməyinin səbəblərindən də danışıb: "Valideynim məni hazırlığa qoyublar. Ancaq beşyaşlıların 1 ilə öyrəndiklərini 1 ay ərzində mənimsədiyimdən sonradan I sinifdə təhsilimə davam etmişəm. Ona görə də IX sinfi belə tez bitirdim".

Ümidin fikrincə, məktəbə tez başlamaq yaxşıdır ki, tez qurtarırsan: "Məncə, uşaq olanda adam daha yaxşı, sürətlə qavrayır hər şeyi. Məktəbə tez getdiyimə görə hər hansı çətinliyim olmadı, əksinə məktəbimizin sürətli oxuyub anlayan şagirdlərindən biri olmuşam".

### Yeməyə "Tabaka", bişirməyə "Spagetti" yaxşı

Ümid IX sinfi bitirib peşə təhsilinə üz tutub: "Peşə təhsili almaq mənim öz istəyim oldu, çünki aşpazlığı çox sevirəm. Fərqli-fərqli yeməklər bişiməkdən çox xoşum gəlir".

Ümid ən çox "Tabaka" yeməyi xoşlayır. Ancaq "Spagetti" bişirmək xoşuna gəlir. Dediyinə görə, oxuyub qurtarandan sonra da öz üzərində işləməyə davam etməlidir ki, əsl hədəfinə çatsın: "Oxuyub təhsilimi bitirdikdən sonra işləyib özümü daha çox inkişaf etdirəcəyəm. Tam hazır olduğumu hiss edəndə isə öz restoranımı açmağı planlaşdırıram".

### Anasından öyrəndiyi yeməklərə özünəməxsus dad qatır

Xüsusi zövqlə hazırladığı yeməkləri evdə hazırlamağa başlayıb, ilk şefi isə anası olub: "Evdə də yeməklər bişirirəm. Yeməklərin çoxunu anamdan öyrənmişəm. Bildiyimiz yeməklərə fərqli şeylər qatmağı, ya da əlimdə olan ərzaqlarla fərqli yeməklər hazırlamağı, növ-növ şirniyatlar bişirməyi sevirəm. Mətbəxdə işləməkdən böyük zövq alıram".

### Aşpazlığı sevməsəydi, heykəltaraşlığı seçərdi

Ümid aşpazlıqdan əvvəl başqa ixtisasla da maraqlanıb: "Bacım orta ixtisas təhsili müəssisəsinə qəbul olunduğu üçün onunla biz də gəldik Bakıya. Həmin yay iki ay bərbər yanında köməkçi işlədim. Ancaq bu peşəni sevə bilmədim".

Amma aşpazlığı əvəz edə biləcək başqa bir peşə də var ağlında: "Əgər aşpazlığı sevməsəydim, heykəltaraş olardım. Bu sənətlə çox maraqlanıram. Məncə, əlimə də yatır. Uşaq vaxtlarımdan evdə plastilin ilə insan sifətləri, kardon ilə maşın və başqa oyuncaqlar düzəltmişəm. Fərqli materiallardan çoxlu əl işlərim var".

### Yeməyinin dadı damaqlarda, restoranının şöhrəti dünyada qalacaq

Yeniyetmə tələbə artıq ilk tədris ilinə başlayıb. Təhsili uğurla davam edir. Həyatını mətbəxə bağlamaq, karyerasını aşpazlıq üzərində qurmaqda qərarlıdır. Özünü restoranında müştərilərinə unudulmaz dadlar bəxş edərkən xəyal edir. Xəyallarının gerçək olacağına şübhəsi yoxdur.

Ümidin təqdim etdiyi yeməklərin dadının damaqlarda qalacağına, restoranının şöhrətinin dünyaya yayılacağına ümidi böyükdür.

**Ruhiyyə DAŞSALAHLI**

# "İlk şagirdim babam olub"

## Babasına Azərbaycan dilində yazıb-oxumağı öyrətdi, müəllim oldu

*8 ildir müəllimdir və dediyinə görə, onu müəllim edən şagirdləridir. Bakı şəhəri 220 nömrəli məktəb-liseyin ibtidai sinif müəllimi Əfşan Fərəclinin hər kəlməsi şagirdləri, hər sözü müəllimliklə bağlıdır. Onun üçün bütün yollar müəllimliyə çıxır. Həyatdakı hər mübarizəsi də elə müəllimlik üçündür. Başlıca mübarizəsini isə xəstəliklə, onun ağır nəticələrindən biri olan əlilliklə aparıb. Uşaqlıqda onu yaxalayan iflicl ə elə savaşıb ki, II dərəcəli əlilliyi III dərəcəyə enib. Bu mübariz müəllimi tanımaq istəyirsinizmi?*



### Müəllimliyə gedən yol

Əfşan Fərəcli Bakı şəhərində doğulub. Tam orta təhsilini Bakı şəhəri 34 nömrəli tam orta məktəbdə alıb. Azərbaycan Dövlət Pedaqoji Universitetində tələbəlik həyəcanını yaşayıb. Belə ki, 2012-ci ildə ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında yetərli balı toplayaraq "İbtidai sinif müəllimliyi" ixtisasına qəbul olub.

Bu ixtisası seçməyində müəllim ailəsində böyüməyinin mütləq təsiri danılmazdır: "Müəllim ailəsində doğulmuşam. Düşünürəm ki, uşaq üçün ən böyük şans valideynin təhsilli olması və uşağını düzgün şəkildə istiqamətləndirməsidir. Daha böyük şans isə həyatında düzgün istiqamət verən müəllimlərdir. Mən həmin şanslılardanam. Uğurlarıma görə valideynlərimə və mənə dərs deyən, müəllim olandan sonra da dəstəklərini məndən əsirgəməyən müəllimlərimə borcluyam".

### Ağdamdan başlayan müəllimlik fəaliyyəti

Bu qədər böyük təsiredici mühitdə o da müəllim olmağa qərar verib. Müəllim olmaq üçün çox imtahanlarda iştirak edib, hamısından uğurla keçib. Bu yolda ən böyük imtahanı 2017-ci ildə olub. Müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edərək uğur qazanıb. O gündən start götürən müəllimlik yolu Ağdamda 71 nömrəli tam orta məktəbdən başlayıb.

Özünü hələ şagird ikən müəllim kimi hiss etməyə başlayıb: "Müəllimliyə olan sevgim uşaqlıqdan var. Qız uşaqları evcik-evcik oynayanda, mən gəlinciklərimi düzüb sinif otağı yaradırdım və müəllim kimi onlara dərs keçirdim".

İlk canlı şagirdi babası olub: "Babam Azərbaycan dilində yazıb-oxuya bilmirdi. Mən məktəbə gedəndən sonra ona da yazıb-oxumağı öyrətdim. Babamın Azərbaycanca yazıb-oxuduğunu görmək məni çox sevindirirdi. O gündən sonra böyüklərin "Səndən yaxşı müəllim olar", - dediyini çox eşidirdim. Bu fikirlər böyüyüb kim olacağıma dair qərar verməyimə kömək etdi, məni düzgün yönləndirdi".

O, həqiqətən, çox yaxşı müəllim oldu. Bunu 2023-cü ildə, sadəcə özünə və yaxın ətrafına yox, bütün ölkəyə sübut edib. Həmin il qatıldığı müəllimlərin sertifikatlaşdırılması prosesinin test imtahanı mərhələsində 60 baldan 51, müsahibə mərhələsində 40 baldan 35 bal toplayıb: "Nailiyyətlərimin səbəbi peşəmə və uşaqlara qarşı içimdəki sevgidir. Sevgi varsa, orada uğur da olur, öyrənmək motivasiyası da, üstəlik, öyrətmək istəyi də".

### Uşaqlıqdan qalan iz

Sağ tərəfli insult keçirib və bu, bir tərəfinin iflic olması ilə nəticələnib. Uşaqlıqdan bəri aparılan müalicə nəticəsində nisbətən sağlamlığı bərpa olunsa da, əlillik də qalıb. Amma bu əlillik onu dayandırmayıb, nə təhsilindən, nə işindən geri qalıb. Problemlərə baxmayaraq, təhsilini, sonra işini həyatdakı bütün çətinliklər, maneələrlə paralel şəkildə aparmaq həyat tərzinə çevrilib: "Uşaqlıqda beyin qanaması keçirmişəm və hərəkətimlə bağlı müəyyən məhdudiyyətlərim var. Xəstəliyimin sağalması çətin və uzun zaman alan prosesdir. Sinirlərlə bağlı olduğundan yaratdığı çətinliklər bir o qədər də ağır olur. Amma bu, heç vaxt təhsil almağıma, arzularımı reallaşdırmağıma əngəl olmayıb. Təcrübəmə əsasən deyə bilərəm ki, bu, təhsilə maneə deyil və ola bilməz".

### Müəllimlikdə gənclik amili

"Gənc olmağım mənim qarşıma daha çox imkanlar açır. Düşünürəm ki, indi gənclər üçün imkanlar daha əlçatandır və gənclər bu fürsətlərdən istifadə etməlidirlər", - deyən Əfşan müəllim hələ gəncdir, həyatda da, elə müəllimlikdə də.

"Cəmiyyətin həm gənc, həm də yaşlı, təcrübəli müəllimlərə ehtiyacı var. Gənclər müəllimliyi məhz təcrübəli müəllimlərdən öyrənir. Məsələn, sinifdə öhdəsindən gələ bilmədiyimiz məsələlərin həlli üçün, ilk növbədə, təcrübəli müəllimlərdən kömək istəyirik. Gənc müəllim "hər şeyi bilirəm" fikri ilə deyil, məhz "öyrənirəm" fikri ilə yanaşmalı, yaşlı müəllim isə öz gənc həmkarına bildiklərini ötürməlidir. Biz də gələcəkdə onların yerində olacaq, yeni nəslə öz bacarıqlarımızı ötürəcəyik".

**Ruhiyyə DAŞSALAHLI**

# QƏHRƏMAN GƏNCLƏR

## Şuşada şəhid olan müəllim



Qoşqar Ömərov Kürdəmirdə doğulub, Abşeron rayonunun Masazır kəndindəki ən müasir məktəblərdən birində, 5 nömrəli tam orta məktəbdə şagirdlərinə hesablama elmini öyrənməkdə bələdçilik edib. Sentyabrın axırına kimi o bir müəllim idi şagirdlərinin gözündə. Sonra müharibəyə çağırılıb və döyüşə-döyüşə Şuşanın Daşaltı kəndinə gedib çıxıb. Noyabrın 5-də şəhidlik zirvəsinə yüksələnədək davam edən ömrü qısa olsa da, məqsədi böyük olan döyüş yolunu da məharətlə 26 illik ömrünə sığdırıb.

2018-ci ildən müəllim idi. Müəllimlərin işə qəbulu müsabiqəsində 57 bal toplayaraq riyaziyyat müəllimi kimi sinfə girmək hüququ əldə etmişdi. Azərbaycan Dövlət Pedaqoji Universitetində bakalavr, Memarlıq və İnşaat Universitetində isə magistr olmuşdu. Doktorantura təhsili də alacaqdı.

Amma vətənin çağırışına qoşulub. Sentyabrın 27-dən Füzuli cəbhəsindən müharibəyə qatılıb, döyüşlərdə xüsusi fəallığı və igidliyi ilə seçilərək kəşfiyyat bölüyünə daxil edilib. Bir sıra yüksəkliklər uğrunda döyüşlərdə iştirak edib, noyabrın 4-də Şuşanın Daşaltı kəndinin ətrafında gedən döyüşlərdə həlak olana qədər.

Ölümündən sonra “Vətən uğrunda”, “Xocavəndin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

## “Qarabağın terrordan təmizlənməsində və yenidən bərpasında iştirak şansım oldu”

“Kəşfiyyat bölüyü olaraq sentyabrın 19-da günorta saatlarında Xocalı rayonundan döyüşə başladıq. Qarşımıza qoyulan tapşırıqlar qəti idi. Postları alıb qısa müddətdə döyüş tapşırıqlarını yerinə yetirir və irəliləyirdik. Xankəndinə ilk daxil olan taborlardan biri də biz olduq. Sonra Xankəndini terror qruplaşmalarından tamamilə təmizlədik”. Bunu Qarabağ Universitetinin hazırda II kurs tələbəsi olan İlqar İsgəndərli deyir. Zəfər Günü ərəfəsində qəhrəmanlıq tarixinin yaranmasında rolu olanların xatirələri yenidən canlanır. İlqar da antiterror əməliyyatlarının iştirakçılarından biridir. O, antiterror əməliyyatları başlayanda müddətdən artıq hərbi xidmət keçirdi.



### Qarabağ Universitetinin tələbəsi döyüş xatirələrindən danışdı

**Hərbə marağı uşaqlıqdan yaranıb**

İlqar Beyləqan rayonundandır. Rayonun Milabad qəsəbə Şəhid Vilayət Cəfərov adına tam orta məktəbindən məzun olub. Dərhal da hərbi xidmətə yollanıb.

Onu hərbi forma geyinməyə tələsdirən səbəbə gəlincə, dediyinə görə, uşaqlıqdan hərb sənətinə çox böyük marağı olub: “Bilirsiniz ki, Beyləqanda hərbi hissələr var və hər addımbaşı hərbçilərlə qarşılaşırsan. Uşaqlıqdan hərbi geyimlərə maraq göstərir, əynimə böyük ölçülü hərbi formalar geyinirdim. Televiziyalarda hərb sənəti ilə bağlı çoxlu sənədli filmlər, döyüş səhnələri çox olan bədii filmlər izləyirdim”.

Həqiqi hərbi xidməti Naxçıvanda keçib. Onun hərbi xidmət dövrü II Qarabağ müharibəsi ilə üst-üstə düşdüyündən 18 ay yox, 21 ay xidmət edib, ancaq döyüşlərə qatılmayıb: “O günlərdə biz də kənar müşahidəçi idik. Müharibədə iştirak edən qüvvələrin uğurlarını izləyib ruhlanır, şəhid xəbərlərindən üzülürdük. Hər birimiz döyüşlərdə iştirak etməyi arzulayırdıq, amma bizə ehtiyac qalmadan müharibə bitdi”.

Döyüşlərdə iştirak zərurəti yaranmadığından o, müharibə iştirakçısı ola bilməyib: “Hərbi xidmətimi başa vurub qayıtsam da, düşünürdüm ki, ölkəmizin ərazi bütövlüyü təmin edilməyib. Bu da mənim aləmimdə əməliyyatların davam edəcəyi anlamına gəlirdi. Qarabağın azad olunmasında, ərazi bütövlüyünün təmin olunmasında payım olsun istəyirdim. Həyatda qalıb-qalmamağımdan asılı olmayaraq, prosesin bir parçasına çevrilməyi arzulayırdım”.

**Terrorla mübarizə başlayanda o da arzuladığı şansı qazandı**

Ona görə də yenidən hərbi xidmətə qayıtmağa qərar verib: “Çox keçmədən geri qayıtmağa qərar verdim. Vətən müharibəsindən sonra komandir birləşmələri yaradılırdı. Həmin birləşmələrdə xidmət etmək istəyirdim. Müraciətimə müsbət cavab aldım və Şəmkir rayon Seyfəlli atış poliqonunda 75 gün ərzində kurs keçdim. Kursu uğurla bitirib sertifikat aldım. Üçüncü ən yaxşılardan biri mən idim. Xocavənd rayonun Hadrut qəsəbəsində xidmətə başladım”.

Bu xidməti dövründə uşaqlıqda sevərək aldığı silahların gerçək olanlarından istifadə edib. Kəşfiyyatçı olaraq onun da başlayan antiterror əməliyyatlarında öz rolu olub: “Antiterror əməliyyatında sonuna qədər iştirak etdim, Xankəndində, Xocalıda qeyri-qanuni silahlı birləşmələrin ərazidən təmizlənməsində öz üzərimə düşən tapşırıqları yerinə yetirdim. Lokal xarakterli antiterror əməliyyatları başa çatandan 3 ay sonra xidmətimi başa vurub ordudan tərxis olundum”.

**Döyüş meydançalarını universitet auditoriyasına dəyişdi**

İlqar kəşfiyyatçı kimi xidmətini başa vuraraq mülki həyata qayıdıb. Qarabağda silahla görüləcək işi qalmayıb. O da uşaqlıqdan arzusunda olduğu hərbi formanı əynindən çıxartmaqdan başqa çarə görməyib. Çünki artıq Qarabağ döyüş məkanı deyil, inkişaf, quruculuq işlərinin məkanı olmuşdu. Bunu hələ hərbi xidmətdə ikən görən qəhrəmanım silahını yerə qoyub əlinə qələm, sirkul, xətkeş, karandaş alıb layihələr cızmağın vaxtı çatdığına inanıb. Amma bu inancı doğuran səbəb də Qarabağ Universitetinin açılması ilə bağlı xəbər olub: “Ailəm universitetdə oxumağımı çox istəyirdi. Nənəm müəllim olub, anam müəllimdir. Gözümü açandan oxumağım üçün hər şey ediblər. Təhsilimi ali məktəbdə davam etdirmək istəməməyim ürəklərincə deyildi. Hərbi xidmətdə olarkən Prezident İlham Əliyevin Qarabağ Universitetinin yaradılması ilə bağlı Sərəncamını eşidəndə həvəsləndim. Bununla ailəmin arzusunu da yerinə yetirmək imkanı qazanacaqdım və bu, mənə böyük stimul oldu”.

**3 aylıq hazırlıqdan sonra tələbə oldu**

Bu stimulla hərbi xidmətdən tərxis olunaraq ali məktəblərə qəbul imtahanlarına hazırlaşmağa başlayıb: “3 aylıq gərgin hazırlıqdan sonra Dövlət İmtahan Mərkəzinin keçirdiyi qəbul imtahanlarına qatılaraq 390-dan çox bal topladım. Qarabağ Universitetinin Mühəndislik fakültəsinin “İnşaat mühəndisliyi” ixtisasına qəbul olundum”.

Hələ II kursda oxumağına baxmayaraq, artıq nəinki təcrübəsi, hətta bir işi də var. Axı Qarabağ böyük bir tikinti meydançasıdır! Deyir ki, bu ixtisası seçməyində, sadəcə Qarabağda gedən böyük tikinti prosesi səbəb olmayıb, həm də özünün bu işə həvəsi rol oynayıb: “Qarabağ Universitetinin yeni tələbə yataqxanasının qurulması yay fəslinə təsadüf etdiyindən orada mühəndis kimi işləmişəm. Hazırda Xocavənd rayonunda mühəndis kimi fəaliyyətimi davam etdirirəm. Günün yarısını universitetdə mühəndislik üzrə nəzəri biliklər alır, digər yarısında sahələrə enib oxuduqlarımı təcrübədə tətbiq edirəm. Özümü mühəndis kimi göstərə bilir, işimlə fərqlənirəm. Bu səbəbdən iş prosesində üstünlüyümü hiss edirəm”.

**Qarabağda layihələri reallığa çevirir**

İlqar Qarabağın yenidən dirçəlməsində iştirakından çox məmnundur. Gələcəyini mühəndislikdə görür. Dediyinə görə, arzusuna çatıb: “Mənim üçün əvəzolunmaz bir hissdir ki, Qarabağın həm terrordan təmizlənməsində, həm də yenidən bərpa olunmasında iştirak şansım oldu”.

**Ruhiyyə DAŞSALAHLI**

## 2026-cı il Gənclər üçün Prezident mükafatçıları

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən 10 gəncə 2026-cı il Gənclər üçün Prezident mükafatı verilib. “Azərbaycan müəllimi” Prezident mükafatçılarını oxucularına təqdim edir.




### “Bu mükafat bir daha onu göstərir ki, Azərbaycan gəncliyi dövlət səviyyəsində daim diqqət və qayğı ilə əhatə olunur”

Yüksək dövlət mükafatına layiq görülən gənclərdən biri də Lamiyə Famil qızı Məmmədovadır. 1999-cu ildə Gəncə şəhərində anadan olan Lamiyə Məmmədova 31 nömrəli tam orta məktəbin məzunudur. 2016-cı ildə yüksək balla Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin “Azərbaycan dili və ədəbiyyatı müəllimliyi” ixtisasına daxil olub. 2017-ci ildən həmin ixtisas üzrə SABAH qruplarında təhsilini davam etdirib, 2020-ci ildə adıçəkilən ali təhsil müəssisəsini fərqlənmə diplomu ilə bitirib. Həmin il Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin “Gənclərlə iş” ixtisası üzrə magistraturaya daxil olub və 2022-ci ildə fərqlənmə diplomu ilə universiteti bitirib.

Lamiyənin uğura gedən yolu çox rəngarəng və zəngindir. Belə ki, fəal gəncimiz tələbəlik illərində SABAH Könüllülərində fəaliyyət göstərib. Təhsil aldığı müddətdə göstərdiyi aktiv sosial, ictimai fəaliyyətlərə görə müxtəlif sertifikat və təşəkkürnamələrlə təltif olunub. Lamiyə sosial iş sahəsi üzrə 2 məqalə və 1 tezis müəllifi olmaqla yanaşı, eyni zamanda “Coursera” platforması vasitəsilə müxtəlif xarici universitetlər üzrə gənclərlə iş, yumşaq bacarıqlar və idarəetmə mövzularında beynəlxalq sertifikatlara layiq görülüb. 2020-ci ildə Gənclərin İnkişaf və Karyera Mərkəzinin Gəncə nümayəndəliyində könüllülərlə iş üzrə təcrübəçi, klub rəhbəri, “Məşğulluq, sahibkarlıq sahəsində təhsil və icma inkişafı üzrə gənc resurs mərkəzi” layihəsində təlimçi-mentorun köməkçisi, 2021-ci ildə Azərbaycan Respublikasının Gənclər Fondunda Gənclər təşkilatları ilə iş üzrə təcrübəçi, daha sonra “SOS” Uşaq Kəndləri Azərbaycanda təlimçi olub. 2022-ci ildə “Böyük Qayıdış” Gənclər Təşkilatında təlimlər üzrə menecer, layihələr üzrə menecer, 2023- 2024-cü illərdə proqram meneceri olaraq fəaliyyət göstərib. O, fəaliyyəti dövründə 40-dan çox irimiqyaslı proqram və layihənin təşkilində, 400-dən çox kiçikmiqyaslı təlim və seminarların icrasında, müxtəlif düşərgələrin koordinasiyasında iştirak edib.

2024-cü ildən Qarabağ Universitetində tələbələrlə iş üzrə mütəxəssis vəzifəsində çalışan Lamiyyə 2025-ci ildən isə sosiologiya üzrə müəllim kimi fəaliyyət göstərməklə bərabər, eyni zamanda tələbələrlə iş üzrə böyük mütəxəssis vəzifəsinə irəli çəkilib.

Qarabağ Universitetində fəaliyyət göstərmək onun üçün xüsusi mənəvi məna daşıyır. Bildirir ki, bu ali təhsil ocağı təkcə bir təhsil müəssisəsi deyil, həm də yenidən bərpa olunan Qarabağda elmin, gəncliyin və gələcəyin simvoludur. Burada çalışmaq ölkəmizin inkişaf prosesinin bir parçası olmaq, gənclərin formalaşmasına töhfə vermək deməkdir.

Ali mükafatın sevincini yaşayan Lamiyə bu xəbəri eşidəndə böyük qürur hissi keçirib: “Etiraf edim ki, adımın mükafatçılar sırasında olması mənim üçün gözlənilməz oldu. Bu həyəcan məndə hələ də davam edir. Sözlə ifadə edə bilməyəcək qədər sevinc hissləri keçirirəm. Belə bir ali mükafata layiq görülmək çox qürurvericidir. Göstərilən bu yüksək etimad mənim üçün sadəcə bir mükafat deyil, eyni zamanda üzərimə düşən məsuliyyətin daha da artması deməkdir. Bu dəyərin doğruldulması üçün fəaliyyətimi daha böyük motivasiya ilə davam etdirmək niyyətindəyəm. Bu mükafat bir daha onu göstərir ki, Azərbaycan gəncliyi dövlət səviyyəsində daim diqqət və qayğı ilə əhatə olunub. Gənclərin potensialının üzə çıxarılması, bilik və bacarıqlarının dəyərləndirilməsi ölkə rəhbərliyinin əsas prioritetlərindəndir. Bu cür təşəbbüslər gənclərin cəmiyyətə daha fəal və məsuliyyətli şəkildə inteqrasiyasına güclü stimul verir.

Məni Prezident mükafatına layiq gördüyünə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Göstərilən etimad mənim üçün böyük şərəfdir. Bu diqqət və dəstək gələcək fəaliyyətimdə daha məsuliyyətli olmağa, ölkəmizin inkişafına və gənclər siyasətinin həyata keçirilməsinə töhfə verməyə məni daha da ruhlandırır”.

**Samirə KƏRİMOVA**



### “Gələcək əsas hədəfim elmə töhfə verməkdir”

Mahmud Azər oğlu İsmayılov Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Mexanika kafedrasında müəllim işləyir. Eyni zamanda “Maşınlar, avadanlıqlar və proseslər” ixtisası üzrə doktorantdır. O, universitetin SABAH qruplarında “Mexanika mühəndisliyi” ixtisası üzrə bakalavr və magistratura səviyyələrini fərqlənmə diplomu ilə bitirib. Qeyd edir ki, hazırda dənizdə üzən külək turbin platformalarının layihələndirilməsi sahəsində elmi tədqiqat aparır: “2020-2021-ci illərdə sənayedə mühəndis kimi çalışmışam. Sonradan 2023-2025-ci illərdə Vorvik Universiteti (University of Warwick) ilə birgə ikili diplom proqramında və bir sıra beynəlxalq tədris layihələrində müəllim kimi fəaliyyət göstərmişəm. Hazırda bərpa olunan enerji, üzən külək turbinləri, mexaniki sistemlərin möhkəmliyi və sonlu elementlər analizi sahələrində tədqiqatlar aparıram”.

Mahmud İsmayılov həmçinin “TEKNOFEST Azərbaycan robototexnika” yarışının qalibi, IDDA & KOICA proqramının ən yaxşı təlimçisi, 13 elmi məqalə müəllifidir. NATO SPS beynəlxalq qrant layihəsində iştirak edib, hazırda isə biomimetik, damla formalı üzən külək platforması üzrə beynəlxalq tədqiqat qrantına rəhbərlik edir: “Gələcək əsas hədəfim elmə töhfə vermək, bərpa olunan enerji sahəsində innovativ və praktik həllər yaratmaqdır. Xüsusilə dənizdə üzən külək turbinləri üçün daha dayanıqlı və səmərəli platformaların layihəsi üzərində çalışaraq bu ideyaları patent və real sənaye tətbiqlərinə çevirmək istəyirəm. Məqsədim Azərbaycanın bu sahədə beynəlxalq səviyyədə tanınmasına töhfə vermək, güclü elmi məktəb formalaşdırmaq və gənc mühəndislərin yetişməsinə dəstək olmaqdır”, - deyə gənc tədqiqatçı bildirib.

**Lamiyyə ƏLİMƏRDANOVA**



### “Əməyin dəyərləndirilməsini görmək böyük qürurdur”

Gənclər üçün Prezident mükafatına layiq görülən gənclərdən biri də Sərxan Ağadadaşovdur. Azərbaycan Hava Yolları Qapalı Səhmdar Cəmiyyətinin Milli Aviasiya Akademiyasının “Pilotsuz uçuş aparatları” qrupunun qrup rəhbəri Sərxan Ağadadaşov “Azərbaycan müəllimi”nə açıqlamasında mükafatın gələcək fəaliyyətinə əlavə məsuliyyət yaratdığını bildirib. O qeyd edib ki, Prezident mükafatını pilotsuz uçuş aparatları sahəsində gördüyü işlərə görə aldığını düşünür: “Çünki biz bu sahədə uzun illər öncədən fəaliyyətə başlamışıq. Bu işin bu mərhələyə çatması üçün göstərdiyimiz əziyyətin qiymətləndirildiyini hesab edirəm. Eyni zamanda, bu bilik və təcrübəni hazırda tələbələrə, gələcək nəsil mühəndislərə ötürməyimiz də bu mükafatın mənə verilməsində rol oynayıb.

Belə bir mükafata layiq görülmək məndə, ilk növbədə, fəxr və dərin təşəkkür hissi yaradır, bizim üçün böyük qürur və güclü motivasiyadır. Bu, işlərimizi növbəti mərhələyə daşımaq və daha böyük miqyasda inkişaf etdirmək üçün ciddi stimul verir. Bu mükafatı elm sahəsində, xüsusilə də pilotsuz uçuş aparatları istiqamətində gördüyümüz işlərə, qurduğumuz istehsalatlara, bu sahəyə cəlb etdiyimiz tələbə və mühəndislərə, onların yetişdirilməsi üçün apardığımız fəaliyyətə görə almışıq. Belə bir mükafat, xüsusən də onun cənab Prezident tərəfindən verilməsi üzərimizə daha böyük məsuliyyət qoyur və fəaliyyətimizi davam etdirməyi zəruri edir”.

Sərxan Ağadadaşov sözlərinə əlavə edərək deyir: “Çünki bu cür mükafatların arxasında real və böyük nəticələr dayanmalıdır. Yaxın gələcəkdə bunu konkret layihələrlə nümayiş etdirməyi planlaşdırırıq. Əsas məqsədlərimizdən biri Azərbaycanda pilotsuz uçuş aparatlarının istehsalının genişləndirilməsidir. Daha böyük hədəf isə ölkəmizdə, məsələn, ABŞ-də Silikon Vadisi kimi iri texnoloji və innovasiya mərkəzinin yaradılmasıdır.

Bunun üçün bizim kifayət qədər potensialımız, kadrlarımız var. Biz paralel şəkildə həm kadr yetişdirir, həm də müəssisələrimizi formalaşdırırıq. Bir yumruq altında birləşərək torpaqları azad etdiyimiz kimi, bu gün də eyni birliklə ölkəmizin elm və texnologiya sahəsində müstəqil olması üçün çalışmalıyıq. Əsas məqsədimiz də məhz budur”.

**Tünzalə QULİYEVA**

# XXI əsr təhsilinin çağırışları

# Keyfiyyətli müəllim hazırlığı

Məlumdur ki, müəllim hazırlığı yalnız pedaqoji proses deyil, o, həm də insan kapitalının formalaşdırılması prosesinin başlanğıc nöqtəsi kimi, əmək bazarının, daha dərin mənada isə cəmiyyətin gələcəkdə ortaya çıxa biləcək insan resurslarına olan ehtiyaclarının qarşılanması, intellektual potensialın qorunub saxlanması və inkişafı deməkdir. XXI əsrin müasir inkişaf mərhələsi elmi ədəbiyyatda beynəlxalq ictimaiyyət tərəfindən əsasən "dördüncü sənaye inqilabı" kimi səciyyələndirilir. Müasir dövrdə yüksək texnologiyaların, rəqəmsallaşmanın və süni intellektin sürətli inkişafı təhsilin ənənəvi çərçivələrini köklü şəkildə dəyişir.




Cəfər CƏFƏROV, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor

## ADPU təkcə müəllim hazırlamır, həm də cəmiyyətin gələcəyini formalaşdıran insanları yetişdirir

Bu gün artıq aydın görünür ki, müəllim yalnız bilik ötürən deyil, öyrənmə prosesini istiqamətləndirən, öyrənmə mühiti yaradan, fərdi yanaşmanı əsas götürən və şagirdlərin tənqidi və yaradıcı düşüncəsini inkişaf etdirən əsas aparıcı qüvvəyə çevrilib.

Bu kontekstdə müəllim hazırlığı sahəsində qlobal çağırışlar daha aydın və kəskin şəkildə özünü göstərir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) və BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatının (UNESCO) araşdırmaları göstərir ki, dünyada keyfiyyətli müəllimə olan ehtiyac sürətlə artır və müəllimlik peşəsi bir çox ölkələrin təhsil siyasətində strateji prioritetə çevrilir.



Rəqəmsal bacarıqların inkişafı, məlumatlara əsaslanan qərarvermə, səriştə yönümlü təlim və STEAM yanaşmasının tətbiqi artıq inkişaf etmiş ölkələrdə müəllim hazırlığının ayrılmaz tərkib hissəsi kimi qəbul olunur.

Əlbəttə ki, qlobal tendensiyalar hər bir ölkənin, o cümlədən Azərbaycanın milli təhsil sistemində də dəyişiklikləri zəruri edir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan təhsilinin inkişafını dövlətçilik strategiyasının prioritet sahəsi kimi müəyyən etmiş, ali və ümumtəhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsi, ali təhsilin keyfiyyətinin yüksəldilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi və milli kadr potensialının formalaşdırılması istiqamətində mühüm islahatlar həyata keçirmişdir. Onun rəhbərliyi ilə təhsil sistemində davamlı keyfiyyət və inklüzivlik prinsipləri təmin olunmuş, müəllim və tələbə kontingenti artmış, dərslik və tədris resurslarının təminatı yaxşılaşdırılmışdır. Ölkə başçısı, möhtərəm Prezidentimiz İlham Əliyev bu siyasəti layiqli şəkildə davam etdirərək, təhsilin qanunvericilik bazasını gücləndirmiş, məktəb və ali təhsil infrastrukturunu yeniləmiş, ali təhsil sisteminin beynəlxalq inteqrasiyasını sürətləndirmiş, Boloniya prosesi çərçivəsində Azərbaycan ali məktəblərinin Avropa ali təhsil məkanına qoşulmasını, eləcə də əsası hələ Ümummilli Lider tərəfindən qoyulmuş xaricdə yüksəkixtisaslı milli kadrların hazırlanmasını təmin etmişdir. Onun təşəbbüsü ilə həyata keçirilən dövlət proqramları, STEAM layihələri və beynəlxalq inteqrasiya təşəbbüsləri Azərbaycan təhsilinin müasir tələblərə uyğunlaşmasına və gənclərin bilik və bacarıqlarının artırılmasına zəmin yaratmışdır. Beləliklə, ölkəmizdə təhsil sahəsində aparılan sistemli və strateji islahatlar milli inkişafın davamlılığını, habelə milli təhlükəsizliyimizi təmin edən mühüm intellektual əsasları formalaşdırmışdır. Son illərdə ölkəmizdə müəllim hazırlığı sahəsində aparılan islahatlar təhsilimizin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş mühüm addımlardır. Bu islahatlar müəllim hazırlığının yeni mərhələyə keçməsində strateji çərçivə rolunu oynayır.

OECD, UNESCO və Dünya Bankının son illərdə apardıqları araşdırmalar qlobal təhsil sistemində müəllim hazırlığının yeni mərhələyə qədəm qoyduğunu aydın şəkildə göstərir. Bu beynəlxalq qurumların hesabatlarında müəllimin rolu təkcə bilik ötürən deyil, daha geniş kompetensiyalara malik, müasir çağırışlara cavab verən əsas aparıcı qüvvə kimi təqdim olunur.

OECD-nin təhlillərinə görə, XXI əsrin müəllimi yalnız fənn biliyi ilə kifayətlənməməli, eyni zamanda koqnitiv, sosial-emosional və texnoloji bacarıqlara yiyələnməlidir. UNESCO isə müəllimi cəmiyyətin sosial inkişafında əsas aktor kimi dəyərləndirir və təhsildə humanist, şəxsiyyətyönümlü yanaşmanın gücləndirilməsini vacib hesab edir. Dünya Bankının araşdırmaları isə şagird nailiyyətlərinin və ümumi təhsil keyfiyyətinin birbaşa müəllim hazırlığının səviyyəsindən asılı olduğunu göstərir.

Bu beynəlxalq hesabatların ortaq qənaəti ondan ibarətdir ki, gələcəyin müəllimi yalnız öyrədən deyil, eyni zamanda öyrənmə mühiti quran, məlumatla işləməyi bacaran, şagirdin fərdi xüsusiyyətlərini nəzərə alan və texnologiyanı pedaqoji məqsədlərlə səmərəli şəkildə tətbiq edən peşəkar mütəxəssis olmalıdır.

Bu gün müəllim sinfə yalnız bilik ötürmək üçün daxil olmur. Müasir müəllim:

* *şagirdlərin təqdim etdiyi arqumentləri təhlil edir,*
* *onları müxtəlif informasiya mənbələri ilə işləməyə yönləndirir,*
* *sualvermə mədəniyyətini formalaşdırır,*
* *çoxmərhələli, kompleks problemləri şagirdlə birgə araşdırır.*

UNESCO-nun yanaşmasına görə, rəqəmsal savadlılıq artıq yalnız texniki bacarıqlar toplusu deyil, müasir tədrisin əsas pedaqoji komponentinə çevrilmişdir. Bu gün müəllim rəqəmsal resursları dərsin məzmununa məqsədyönlü şəkildə inteqrasiya etməyi, vizuallaşdırma və simulyasiya imkanlarından istifadə edərək interaktiv öyrənmə mühitləri yaratmağı bacarmalıdır. Eyni zamanda şagirdlərin rəqəmsal kompetensiyalarının formalaşdırılması və elektron öyrənmə mühitlərinin səmərəli idarə olunması müasir müəllimin əsas vəzifələrindən biri hesab olunur.

> **"Müəllim hazırlığı sahəsində aparılan islahatlar təhsilimizin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş mühüm addımlardır.**
>
> **Dünyada müəllim hazırlığında STEAM kompetensiyasına malik müəllim ən strateji kadra çevrilir.**
>
> **Müəllim hazırlığında keyfiyyətin təmin edilməsi artıq vahid və sistemli standartlara əsaslanır.**
>
> **Müəllim hazırlığı artıq milli deyil, qlobal akkreditasiya məkanının bir hissəsinə çevrilib."**

Qlobal təhsil təcrübəsi göstərir ki, tədris prosesi artıq ənənəvi sinif mühiti ilə məhdudlaşmır. Hibrid tədris modeli - yəni sinifdaxili və virtual öyrənmənin vəhdəti - müasir təhsilin reallığına çevrilmişdir və bu, müəllimdən hər iki mühitdə eyni keyfiyyəti təmin etməyi tələb edir.

UNESCO-nun mövqeyinə əsasən, gələcəyə yönəlmiş təhsil sistemi vahid yanaşmadan imtina edərək hər bir şagirdin potensialını üzə çıxaran çevik öyrənmə mühitlərinin qurulmasını ön plana çəkməlidir. Bu isə müəllimdən şagirdin bilik səviyyəsini, maraqlarını və fərdi inkişaf trayektoriyasını nəzərə almağı, ona uyğun müxtəlif resurslar, tapşırıqlar və layihələr təqdim etməyi tələb edir. Belə yanaşma şagirdin müstəqil qərarvermə bacarığının inkişafına və fərqli öyrənmə üsullarının effektiv tətbiqinə geniş imkanlar yaradır.

Bu gün çoxşaxəli generativ Sİ (süni intellekt) sistemləri təhsil sferasında inqilabi dönüş yaradır. Dünya Bankının "Təhsildə süni intellekt inqilabı" icmalında müəllimlər üçün süni intellektin təsiri dörd əsas istiqamətdə müəyyənləşdirilir:

1. *süni intellektdən "mentor" kimi istifadə,*
2. *peşəkar inkişaf üçün Sİ əsaslı geridönüşlər,*
3. *dərs planları/məzmunun yaradılmasına dəstək,*
4. *inzibati rutinlərin avtomatlaşdırılması.*

Bu istiqamətlər üzrə süni intellekt XXI əsr müəliminə aşağıdakı fəaliyyətlər üzrə əvəzsiz dəstək ola bilər:

* *test və tapşırıqlar tərtib etmək,*
* *fərqləndirilmiş resurslar yaratmaq,*
* *dərs planı və prosesin aparılma mexanizmini hazırlamaq,*
* *dərs üçün əyani vəsaitlər və simulyasiyalar qurmaq,*
* *dərs keyfiyyətini süni intellektin verdiyi analitik hesabatlarla təhlil etmək,*
* *öz metodikasını təkmilləşdirmək,*
* *beynəlxalq metodik trendləri izləmək və s.*



Süni intellekt bu kimi işlərdə dəstək olmaqla müəllimin dəyərli vaxtına qənaət edir. Bu isə müəllimin resurs yorğunluğunu azaldır və daha yaradıcı proseslərə fokuslanmasını təmin edir.

Təlim-tədris prosesinin digər maraqlı tərəfi olan təhsilalanlar üçün isə süni intellekt:

* *fərdi öyrənməni asanlaşdırır,*
* *zəif bacarıqlarının gücləndirilməsində yolgöstərici rol oynayır,*
* *təkliflər, yeni ideyalar verir,*
* *dərs materialını ümumiləşdirir və s.*

Beləliklə, Sİ müəllimi əvəz etmir, əvəzində müəllimi daha güclü, daha effektiv və daha analitik edir.

Bu qlobal tendensiyalar göstərir ki, artıq müəllimlik yalnız sadə bir peşə deyil, müasir dünyanın ən strateji peşələrindən biridir. Bu transformasiyanın mərkəzində isə müəllim hazırlığının keyfiyyəti dayanır.

Müasir dövrdə qlobal təhsil sistemlərinin qarşılaşdığı ən ciddi problemlərdən biri keyfiyyətli müəllim çatışmazlığıdır. Bu da artıq yalnız inkişaf etməkdə olan ölkələrin deyil, OECD və Avropa İttifaqına daxil olan, yüksək iqtisadi göstəricilərə malik ölkələrin belə gündəliyində olan başlıca çağırışdır.

Bəzən iddia olunur ki, dünyada müəllimlik peşəsi rəqabətli əmək bazarında gənclər üçün əvvəlki qədər cəlbedici deyil. Buna rəqəmsal sektorun daha yüksək maaş və sərbəst iş rejimi ilə gəncləri özünə cəlb etməsi, müəllimlik fəaliyyətinin yüksək emosional yük və streslə müşayiət olunması, təhsil sisteminə yönələn ictimai gözləntilərin artması və pandemiya dövründən sonra tədris prosesinin daha da mürəkkəbləşməsi kimi amillər ciddi təsir göstərir. Bu reallıq artıq təhsilin gələcəyini müəyyən edən əsas strateji mövzudur.

Bu səbəbdən müəllim hazırlığında STEAM metodologiyasının mənimsənilməsi, rəqəmsal laboratoriyalardan istifadə bacarığı, simulyasiya, kodlaşdırma və robotika kimi sahələrin tədrisə inteqrasiyası artıq əsas komponentlərdən birinə çevrilmişdir. Eyni zamanda müasir müəllim problem həlletmə strategiyalarını, layihə əsaslı öyrənmə yanaşmalarını və tədqiqat bacarıqlarını şagirdlərə ötürərək onların XXI əsr kompetensiyalarını formalaşdırmalıdır. Bu da onu göstərir ki, dünyada müəllim hazırlığında STEAM kompetensiyasına malik müəllim ən strateji kadra çevrilir.

Dünyada keyfiyyətli müəllim çatışmazlığı tendensiyası və müəllim obrazının köklü transformasiyası göstərir ki:

* *müəllimlik peşəsi yenidən dizayn edilməli,*
* *müəllim hazırlığı yeni bacarıqlara əsaslanmalı,*
* *universitet-məktəb əməkdaşlığı daha da gücləndirilməli,*
* *müasir müəllim profili rəqəmsal, inteqrativ və tədqiqatyönümlü olmalıdır.*

Bu kontekstdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) müəllim hazırlığı sahəsində apardığı islahatlar fonunda təhsil proqramları sahəsindəki yeniliklər, keyfiyyət təminatı, tədqiqatyönümlülük və rəqəmsal transformasiya ölkənin strateji ehtiyaclarına cavab verir.

Müasir dövrdə müəllim hazırlığı sahəsində keyfiyyət təminatı artıq yalnız daxili nəzarət proseduru deyil, həm də beynəlxalqmiqyaslı rəqabət qabiliyyətinin əsas göstəricisidir.

Bu gün pedaqoji təhsil proqramlarının keyfiyyətinin qiymətləndirilməsi artıq klassik "sənəd yoxlama" yanaşmasından kənara çıxıb.

Beynəlxalq təcrübələr göstərir ki, müəllim hazırlığında keyfiyyətin təmin edilməsi artıq vahid və sistemli standartlara əsaslanır. Avropa, ABŞ və Türkiyənin aparıcı keyfiyyət təminatı qurumlarının irəli sürdüyü standartlar göstərir ki:

* *universitetlər sadəcə təhsil proqramının olmasını deyil, onun necə işlədiyini düşünməli və tətbiq etməlidirlər;*
* *müəllim hazırlığında təlim nəticələrinin (learning outcomes) real ölçülməsi tələb olunur;*
* *tələbələrin praktik hazırlığının konkret göstəricilər əsasında qiymətləndirilməsi əsas şərtə çevrilib;*
* *təhsil müəssisələri öz sistemlərinin davamlı təkmilləşdirmə mexanizmini işlək vəziyyətdə nümayiş etdirməlidirlər;*
* *məzunların məşğulluq göstəriciləri, məktəb direktorlarının və mentorların rəyləri artıq akkreditasiyada obyektiv sübut kimi qəbul olunur.*

Avropa ali təhsil məkanında keyfiyyət təminatına dair sənədlərdə xüsusilə vurğulanır ki, ali təhsildə keyfiyyət yalnız nəticənin yox, həm də prosesin şəffaflığının təmin edilməsidir.

Türkiyədə ali təhsildə keyfiyyət təminatı üzrə milli qurumun yeni standartlarında isə strateji idarəetmə, daxili keyfiyyət mədəniyyəti və beynəlmiləlləşmə kimi istiqamətlər əsas götürülür. Bu tendensiyalar göstərir ki, müəllim hazırlığı artıq milli deyil, qlobal akkreditasiya məkanının bir hissəsinə çevrilib.

Beləliklə, dünyada müəllim hazırlığında keyfiyyət təminatı üç əsas mərkəzdə formalaşır:

1. *Akkreditasiya standartlarında beynəlxalq harmonizasiya;*
2. *Universitet-məktəb inteqrasiyasına əsaslanan praktik hazırlıq;*
3. *Çevik və səriştəəsaslı təhsil proqramlarının hazırlanması.*

Bu üç tendensiyanı həyata keçirən universitetlər yalnız yüksəkkeyfiyyətli müəllim hazırlamır, həm də özünü qlobal təhsil məkanında rəqabətədavamlı institusional aktor kimi təsdiqləyir.

**(Ardı var)**



# Diplomla bitməyən yol:

## Ömürboyu təhsil niyə hər kəs üçün vacibdir?

**Müasir əmək bazarı dəyişir, peşələr yenilənir, biliklərin "ömür müddəti" isə getdikcə qısalır. Bir vaxtlar insanların ali təhsil alıb illərlə eyni sahədə çalışmaları kifayət edirdisə, bu gün artıq ənənəvi təhsil anlayışı - "ali təhsilim bitdi, işə başladım" modeli öz aktuallığını itirməkdədir. Rəqəmsallaşma, texnoloji yeniliklər, eləcə də qlobal iqtisadi dəyişikliklər göstərir ki, uğurun açarı yalnız bir diplomda deyil, daim yenilənən biliklərdə, bacarıqlardadır. Məhz bu reallıq ömürboyu təhsili müasir dövrün əsas tələblərindən birinə çevirir, insanlardan yalnız məktəb və ya ali təhsil dövründə əldə etdikləri biliklərlə kifayətlənməyi deyil, həyatları boyunca öyrənməyə açıq olmağı tələb edir. Hazırda dünyada bilik və bacarıqların sürətlə yeniləndiyi bir şəraitdə ömürboyu təhsil anlayışı xüsusi əhəmiyyət kəsb edir. Ömürboyu təhsil insanın yalnız peşəkar fəaliyyətini deyil, düşüncə tərzini, dünyagörüşünü və həyata baxışını da dəyişir. Bu yanaşma fərdlərə dəyişən şəraitə uyğunlaşmaq, yeni iş imkanları qazanmaq, peşə dəyişməyə hazır olmaq və özünə inamı gücləndirmək imkanı yaradır.**

### Müasir dövr bizdən ömürboyu öyrənməni tələb edir

"Azərbaycan müəllimi" nə bununla bağlı fikirlərini bölüşən Təhsil İnsitutunun Peşə və ömürboyu təhsilin proqramları şöbəsinin müdiri Xanım Şabanova dünyanın sürətlə dəyişdiyini, dünən öyrəndiyimiz biliklərin bu gün artıq aktuallığını itirə biləcəyini söyləyir: "Belə ki, yeni peşələr yaranır, bəziləri isə tamamilə yox olur. Məhz bu səbəbdən təhsil artıq yalnız məktəb və universitetlə məhdudlaşmır. Müasir dövr bizdən ömürboyu öyrənməyi tələb edir. Bu, sadəcə diplom əldə etmək deyil, bacarıq qazanmaq, inkişaf etmək və zamana uyğunlaşmaqdır", - deyə mütəxəssis vurğulayır.

Şöbə müdiri deyir ki, araşdırmalara görə, XXI əsrdə insanlar orta hesabla 5-7 dəfə peşəsini dəyişir. Bu səbəbdən ömürboyu təhsil artıq seçim deyil, zərurətdir.

### Bu təhsil Azərbaycanda həmişə mövcud olub

Həmsöhbətimiz bildirir ki, ömürboyu təhsil Azərbaycanda həmişə mövcud olsa da, əvvəllər bununla bağlı vahid hüquqi baza və sistem yox idi. 2018-ci ilə qədər Azərbaycanda ömürboyu təhsil ayrı-ayrı mexanizmlər və təcrübələr vasitəsilə həyata keçirilirdi. Məsələn, müəllimlərin, həkimlərin, dövlət qulluqçularının ixtisasartırma təlimləri, eləcə də özəl kurslar bu prosesin tərkib hissəsi idi.

2013-cü ildə qəbul edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində "ömürboyu təhsil" anlayışı açıq şəkildə öz əksini tapmışdır: "2018-ci ildə isə "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi" təsdiq olundu. Bu sənəd formal, qeyri-formal və informal yolla əldə olunan bilik, bacarıq və kompetensiyaların tanınması, eləcə də prosesin əmək bazarının tələblərinə uyğunlaşdırılması üçün əsas rol oynadı".

Şöbə müdiri ömürboyu təhsilin yeni iş imkanları qazanmaq, peşə dəyişməyə hazır olmaq, əmək bazarında rəqabət qabiliyyətini artırmaq, şəxsi inkişaf və özünəinamı gücləndirmək kimi üstünlüklərinin olduğunu, həmçinin prosesin insanın potensialını üzə çıxardığını və onu dəyişən dünyada daha güclü etdiyini deyir.

### Ömürboyu təhsilin inkişafı üçün ölkəmizdə hansı addımlar atılır?

Xanım Şabanova qeyd edir ki, ömürboyu təhsilin inkişafı üçün ölkəmizdə bir sıra mühüm addımlar atılıb: "Universitet və peşə təhsili müəssisələrinin nəzdində Ömürboyu Təhsil Mərkəzləri yaradılıb ki, burada da tələbələr karyera konsultasiyaları alır, təlim və sertifikat



proqramlarında iştirak edirlər.

Rəqəmsal resursların genişləndirilməsinə diqqət artırılb. Belə ki, onlayn sertifikat proqramları və resurslarla geniş əhali təbəqələrinin təhsilə çıxışı təmin edilir. Müxtəlif sahələrdə çalışan mütəxəssislərin bilik və bacarıqlarını yeniləmək, peşəkar inkişaflarını davam etdirmək məqsədilə İxtisasartırma və qısamüddətli kurslar təşkil olunur.

Özəl sektorla əməkdaşlıq çərçivəsində ölkəmizdə bəzi özəl şirkətlər ilə birgə proqramlar keçirilir. Bu əməkdaşlıq həm iş dünyasının real ehtiyaclarını əks etdirir, həm də iştirakçılara praktik təcrübə qazandırır.

Media və sosial şəbəkələr vasitəsilə aparılan maarifləndirmə kampaniyaları da insanları davamlı öyrənməyə təşviq edir və fərdi inkişafı stimullaşdırır".

Xanım Şabanovanın sözlərinə görə, bütün bu tədbirlər ömürboyu təhsili yalnız məktəb, universitet ilə məhdudlaşdırmayaraq, insanlara ömürboyu yeni bilik və bacarıqlar qazanmaq, həm fərdi, həm də sosial-iqtisadi inkişafı təmin etmək imkanı verir.

Mütəxəssis effektiv ömürboyu təhsilin hər kəs üçün əlçatan, qısa, praktik, nəticəyönümlü, həmçinin əmək bazarının tələblərinə cavab verməli, eyni zamanda rəqəmsal imkanlardan istifadə və insanları öyrənməyə təşviq etməli olduğunu qeyd edir. Onun fikrincə, burada dövlət, özəl sektor və fərdi təşəbbüslər bir-birini tamamlamalıdır.

### Digər ölkələrdə bu proses necə həyata keçirilir?

Xanım Şabanova qeyd edir ki, ömürboyu təhsil dünya ölkələri üçün strateji prioritetdir: "BMT-nin 2030-cu il Dayanıqlı İnkişaf Gündəliyində 4-cü məqsəd yaşından və sosial statusundan asılı olmayaraq hər kəs üçün ömürboyu təhsil alma imkanlarını nəzərdə tutur. Məsələn, Sinqapurda "SkillsFuture" milli təşəbbüsü çərçivəsində vətəndaşlara ömürboyu təhsil və bacarıqların inkişafı üçün maliyyə dəstəyi göstərilir. Finlandiyada yetkinlik yaşına çatmış şəxslərin təxminən 50%-i hər il əlavə təlimlərdə iştirak edir. Almaniyada isə dual təhsil modeli sayəsində insanlar işləyərkən bilik və bacarıqlarını yeniləyirlər.

Bilirsiniz, ömürboyu təhsil sadəcə oxumaq deyil, həm də inkişafa açıq olmaqdır. Daim öyrənən insan dəyişikliklərdən çəkinmir, əksinə onları fürsətə çevirir. Dövlətin yaratdığı imkanlardan düzgün istifadə etmək isə hər birimizin şəxsi məsuliyyətidir".

### Öyrənən insan gələcəyini qurur

Bəli, deyilənlərdən belə qənaətə gəlmək olar ki, ömürboyu təhsil sadəcə kurslara yazılmaq deyil, eyni zamanda dəyişikliklərə hazır olmaqdır. Daim öyrənən insan risklərdən qorxmur, onları fürsətə çevirir. Bu gün dövlət tərəfindən yaradılan imkanlardan düzgün istifadə etmək, öz üzərində işləmək və biliklərini yeniləmək hər bir fərdin şəxsi məsuliyyətinə çevrilib. Çünki ömürboyu təhsil yalnız fərdi uğurun deyil, cəmiyyətin davamlı inkişafının əsas dayaqlarından biridir. Və məhz davamlı olaraq öyrənməyi qarşısına məqsəd qoyan şəxs öz gələcəyini qurur.

**Samirə KƏRİMOVA**


**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

**aşağıda adıçəkilən kafedrada vakant vəzifəni tutmaq üçün müsabiqə**

**ELAN EDİR:**

*Sosial-mədəni fəaliyyət kafedrası üzrə - kafedra müdiri*

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39

**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**



**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 387 **Sifariş:** 169

**Məsul növbətçi:** S.Kərimova


# Etibarsız sayılır

**Beyləqan şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 1986-cı ildə bitirmiş İsmayılova Esmira Hüseyin qızına verilmiş 229618 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Politexnik Texnikumu** tərəfindən 1993-cü ildə Bayramov Elşən Həsənalı oğluna verilmiş PT-I-109832 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Gərmətük qəsəbə tam orta ümumtəhsil məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Cəfərova Fidan Qadir qızına verilmiş B-558716 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 21 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Hümbətəliyeva (Adiyeva) Təranə İbrahim qızına verilmiş B-651031 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Novruzov qardaşları adına 36 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Əkbərov Elvin Yaşar oğluna verilmiş A-009630 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Ağalıkənd kənd tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Ağayeva (Nəzərova) Gülər Eyvaz qızına verilmiş A-695799 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası** tərəfindən 2025-ci ildə Məcidova Leyla Mais qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Dəmirçilər kənd tam orta ümumtəhsil məktəbi 1994-cü ildə bitirmiş Hadıyeva Nəsibə Tofiq qızına verilmiş 0\40 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Şağlaküçə kənd tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Heydərova (Cabbarova) Səidə Rəvvaq qızına verilmiş A-053520 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 19 nömrəli tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Babayeva Ülviyyə Taryel qızına verilmiş B-362877 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 16 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Nuriyeva Ayan Rövşən qızına verilmiş E-505784 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 258 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş İsayeva Fəridə Vidadi qızına verilmiş B-675503 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 19 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Tağızadə İsmayıl Hafis oğluna verilmiş E-652950 nömrəli tam orta təhsil haqqında fərqlənmə attestatı itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 46 nömrəli tam orta məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Kərimov Hüseyn Elnur oğluna verilmiş C-731280 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Ləkçıplaq kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Məhərrəmov İlham Tofiq oğluna eksternat qaydada verilmiş E-610005 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**12 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2018-ci ildə Abbaszadə Əli Rövşən oğluna verilmiş AN-108235 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Kövüzbulaq kənd tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Baxşizadə Rəsmiyyə Sahib qızına verilmiş 017726 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 183 nömrəli tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Ramakayev İlnur Muniroviçə verilmiş E-684684 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 2 nömrəli tam orta məktəbin VIII sinfini 1988-ci ildə bitirmiş Zurayev Tərlan Tinov oğluna verilmiş A-280679 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Qımır kənd tam orta məktəbi 1984-cü ildə bitirmiş Heydərov Haqverdi Qədir oğluna verilmiş A-963701 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Kəpənəkçi kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2021-ci ildə bitirmiş Xəlilova (Həsrətova) Nuriyyə Tural qızına verilmiş C-532765 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Abazallı kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş İldırımlı Səddam Rafiq oğluna verilmiş A-456360 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Ləj kənd tam orta ümumtəhsil məktəbin VIII sinfini 1992-ci ildə bitirmiş Rzayeva (Ağayeva) Samirə Əlimirzə qızına verilmiş 782685 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2019-cu ildə Ağazadə Həsən Mahir oğluna verilmiş C-036078 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2021-ci ildə Ağazadə Həsən Mahir oğluna verilmiş AM-040424 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2020-ci ildə Abbasov (Şamilli) Natiq Şamil oğluna verilmiş C-074311 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** texniki və təbiət elmlər liseyini 2023-cü ildə bitirmiş Rzayev Əbülfəz Mehman oğluna verilmiş E-576002 nömrəli tam orta təhsil haqqında attestat itdıyi üçün etibarsız sayılır.

**Bakı İslam Universiteti** tərəfindən 2013-cü ildə Tahirov Turab Əliqan oğluna verilmiş N-002660 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 12 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş İsmayılov Orxan Firdovsi oğluna verilmiş A-408926 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası** tərəfindən 2008-ci ildə Hacı-Zadə Vahid Şahid oğluna verilmiş B-114213 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Muradalılı kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Şıxalıyeva Nəzakət Qara qızına verilmiş A-859271 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 106 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Əkbərli Kənan Azər oğluna verilmiş E-342670 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutu** tərəfindən 2004-cü ildə İsmayılova Cəmilə Feyruz qızına verilmiş B-003789 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 8 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Ələkbərov Ömər Anar oğluna verilmiş E-343309 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 57 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Abdullayeva Aysel Yusif qızına verilmiş E-374598 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 10 nömrəli tam orta ümumtəhsil məktəbi 1994-cü ildə bitirmiş Lətifova Samirə Mirsahib qızına verilmiş AƏ-0273 nömrəli tam orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 169 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Səfərov Habil Famil oğluna verilmiş 701292 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Mehdiabad qəsəbə 2 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Hüseynov Bayramalı Cəlil oğluna verilmiş AN-442080 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 87 nömrəli tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Muxtarova Könül Əlibala qızına verilmiş B-598661 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 13 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Zülfüqarova Günel Mehman qızına verilmiş B-289673 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universiteti** tərəfindən 2023-cü ildə Babayeva Billurə Çerkəz qızına verilmiş AM-051044 nömrəli magistr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** internat tipli xarici dillər təmayüllü gimnaziyanı 2014-cü ildə bitirmiş Qəribov Orxan Hafiz oğluna verilmiş A-364414 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Regional Humanitar Kolleci** tərəfindən 2014-cü ildə Quliyeva Nərmin Səməd qızına verilmiş AA-042996 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Ağalıkənd kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Əliyeva Aysel Üzeyir qızına verilmiş A-604609 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir şəhər** M.Füzuli adına təbiət və humanitar fənlər təmayüllü məktəb-liseyi 1999-cu ildə bitirmiş Həsənova Samirə Mayıl qızına verilmiş A-362035 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 274 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş İbadzadə Turqut Şahbaz oğluna verilmiş E-200941 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2005-ci ildə Quliyeva Elnarə Rza qızına verilmiş B-052444 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci** tərəfindən 2023-cü ildə Mikayılova Rəvanə Namiq qızına verilmiş AA-193006 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Xızı rayonu** Giləzi qəsəbə orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Səfərova Kübra Əkbər qızına verilmiş B-261744 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci** tərəfindən 2024-cü ildə Ağayev Tunar Ramin oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.